40_27 IYUl-QARA.qxd 11/14/2024 9:54 PM Page 1


# UNİKAL

№42 (2224) 15 noyabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az


# Dünyanın gözü Bakıda:

## Azərbaycan COP29-da mühüm mesajlar verir




Səh.9



## Hikmət Hacıyevdən Jozep Borrellə cavab

*Sizin Avropa İttifaqını "bağ", dünyanın qalan hissəsini isə "cəngəllik" kimi təsvir etməyiniz çox təəssüf doğurur. Bu bəyanat müstəmləkə dövrünün "biz və barbarlar" hekayəsindən başqa heç nəyi xatırlatmır. "Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borrellə cavabında "X" hesabında yazıb. Prezidentin köməkçisi qeyd edib ki, inkişaf etməkdə olan kiçik ada dövlətləri Aİ dövlətlərinin xaricdəki regionları kimi iqlim dəyişikliyindən daha çox əziyyət çəkir...*

Səh.2

## "Bu, Azərbaycana göstərilən etimadın göstəricisidir"



*Milli Məclisin deputatı Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, Azərbaycanda keçirilən COP29 tədbirinin ölkəmizə hansı töhfələr verəcəyindən, Ermənistanın bu cür mühüm tədbirə qatılmamasından və bəzi dairələr tərəfindən bu tədbirə qarşı boykotun təşviq edilməsinin səbəblərindən danışıb.*

Səh.4

## "Nazirlər Bəyannaməsi" imzalandı



*COP29 çərçivəsində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin ətraf mühit və ekologiya nazirlərinin ilk görüşü "Nazirlər Bəyannaməsi"nin imzalanması ilə yekunlaşıb. Ekologiya Nazirliyindən "Unikal"a verilən məlumata görə, 2024-cü ilin iyulunda Şuşada TDT-nin Dövlət başçılarının...*

Səh.2

## COP29 Azərbaycanın dünyaya inteqrasiyasını daha da sürətləndirəcək



*Artıq bir neçə gündür ki, Azərbaycan mötəbər tədbirə ev sahibliyi edir. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı çərçivəsində (COP29) Azərbaycana dünyanın müxtəlif ölkələrindən 60 mindən çox qonaq gəlib.*

Səh.11

40_27 IYUI-QARA.qxd 11/14/2024 9:58 PM Page 2



# Ağadadaş Ağayevin ölkədən çıxışına qadağa qoyuldu



***Xalq artisti Ağadadaş Ağayevin ittiham olunduğu cinayət işi üzrə məhkəmə prosesi keçirilib.***

"Unikal" xəbər verir ki, bu gün Binəqədi rayon Məhkəməsində hakim Vüsal Tağıyevin sədrliyi ilə keçirilən hazırlıq iclasında təqsirləndirilən Ağadadaş Ağayevin və zərərçəkən şəxslərin anket məlumatları dəqiqləşdirilib.

Daha sonra zərərçəkən tərəfin vəkili məhkəmədə vəsatətlə çıxış edib.

Vəkil işin mahiyyəti üzrə olmadığını, ibtidai istintaqa qaytarılması, daha ağır ittihamlarla cinayət işinin açılmasını və Xalq artistinin barəsində həbs qətimkan tədbiri seçilməsini tələb edib.

Dövlət ittihamçısı vəsatətlərin təmin olunmamasını istəyib.

Qısa müşavirə olub. Müşavirədən sonra hakim Xalq artistinin barəsində həbs qətimkan tədbiri seçilməsi barədə vəsatətin təmin edilmədiyini açıqlayıb. Digər vəsatət isə baxılmamış saxlanılıb.

Cinayət işinin məhkəmə baxışına verilməsi ilə bağlı qərar qəbul edilib.

Bakı Kommersiya Məhkəməsində hakim Kənan Hüseynovun sədrliyi ilə keçirilən iclasda qərar verilib.

Qərara əsasən, Dövlət Vergi Xidmətinin (DVX) Bakı şəhəri üzrə Lokal Gəlirlər Baş İdarəsinin iddiası təmin edilib və müğənninin Azərbaycandan çıxışına müvəqqəti qadağa qoyulub. Yalnız vergi borcları ödəndikdən sonra DVX həmin qadağanı aradan qaldıra bilər.

# "Bədənimi kopyaladılar, amma sənətimi edə bilməzlər" - Roza Zərgərli

***Müğənni Roza Zərgərli qonaq olduğu "Elcanlı"da maraqlı açıqlamalar verib.***



Ona oxşamaq istəyən barədə suala cavab verən sənətçi qalmaqallı fikirlər səsləndirib.

"24 ildir səhnədəyəm, kopyam çıxmayıbsa, bundan sonra da olmayacaq. Onsuzda xarici görünüşümü kopyaladılar, amma bizə daş atdılar. Üz cizgilərimi də təkrarladılar. İndi də sənətimizi kopyalamağa çalışırlar, amma daş gəlib bizə dəymir".

# "O kişini mənim əlimdən heç kim ala bilməz" - Türkan Vəlizadə

***Müğənni Türkan Vəlizadə açıqlaması ilə diqqət çəkib.***



"Unikal" xəbər verir ki,sosial şəbəkə hesabından canlı yayım açan ifaçı maraqlı etiraf edib.

Sənətçi qarşısına çıxacaq olan bəy namizədinə mesaj ünvanlayıb: "Mən eşq qadınıyam. Allah haqqı mən kimisə sevsəm, o adamı mənim əlimdən heç kim ala bilməz. Sevgimə sahib çıxaram, hər zaman".

# "Cəhənnəm olsun o oğlan da, qız da..." - Elnarə Abdullayeva

***"Ailə qurmağa tələsməyin. Qızlar, zamanı gələndə ərə gedərsiniz. Özünüzə əziyyət verməyin. Mən gənclərə həmişə məsləhət verirəm. Deyirəm, ay qız, o oğlan qələt edir sənin arxanca düşür. Qələt edir, boş ver onu. Olmaz!"***



"Unikal" olay-a istinadla xəbər verir ki, bunu Əməkdar artist Elnarə Abdullayeva "İncə səhər" verilişində deyib.

O əlavə edib: "Vaxt, zaman gələndə ailə qurarsınız. Gənc qız ağlayıb, özünü öldürür ki, oğlan onu almadı. Oğlan da digər tərəfdən özünü öldürür ki, qız mənimlə neçə vaxt danışır, görüşür, amma mənə ərə gəlmədi. Cəhənnəm olsun o oğlan da, qız da!.. Niyə özünüzü bu kimi məsələlərə görə öldürürsünüz və ya həyatınızı çürüdürsünüz. Qurana and olsun, mən həyatını çürüdən gəncləri görürəm, onlara yazığım gəlir. Deyirəm ki, bunlar nə zaman ayılacaqlar ki, hər şey boşdur. "Leyli və Məcnun" kimi ailə quran cütlükləri görmüşəm. Bir-birinin dərdindən az qala ölsünlər. Amma bir ay keçir, aralarında qiyamət qopur. Atanız sizə evdən çıxanda 3 manat pul verirsə, gedin ona "pirojki" alıb yeyin. Bilirsiniz o rahat başla "pirojki" yemek necə gözəl hissdir".



# Günel estetik iddialarına cavab verdi

***Müğənni Günel Zeynalova estetik etdirməsi ilə bağlı iddiaları cavablayıb.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu barədə ifaçı türk mediasına açıqlama verib.

"Özümə baxıram. Məncə hər bir qadın bunu etməlidir. Yaşım artıb hər halda. İnsan 18 yaşından sonra gözəlləşir. Burnum və dodağımdan başqa üzümdə heç bir estetik yoxdur. Mənə inanmırlar, amma vecimə deyil. Hazırda çəkim 45 kiloqramdır. Bundan aşağı çəki xəsəlikdir. O dərəcədə arıqlamağa ehtiyac yoxdur".

# "Kişi ağlayanda xoşuma gəlir" - Aşıq Telli

***"Kişilər ağlayanda xoşum gəlir. Onların da ürəyi ətdəndir. Bir doğmasını itirirsə, necə ağlamasın".***



"Unikal" shownews-a istinadən bildirir ki, Aşıq Tellinin bu sözlərinə teleaparıcı Nanə Ağamalıyeva fərqli cavab verib: "Həyatımda 2 dəfə ağlayan kişi görmüşəm və dünyam dağılıb. İstənilən vəziyyətdə... Çarəsiz durumda. Mən baxa bilmirəm".

# "Arzuları ürəklərində qaldı" - Xatun



***Müğənni Xatun Əliyeva instaqram səhifəsini qaytara bilib.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu barədə ifaçı sosial media hesabında yazıb.

"İnstaqram ən sevdiyim platformadır. İllərlə əziyyətlə, böyük sevgi ilə bu səhifəni yaratdım, əlbəttə ki, məni sevib maraqla izləyənlərin sayəsində. Son günlər fəal iştirakıma xələl gətirmək istəyənlərin arzuları ürəklərində qaldı. İlahi ədalətə təşəkkür edirəm" deyə, o bildirib.

Qeyd edək ki, bir müddət əvvəl Xatunun yarım milyondan çox izləyicisi olan səhifəsi tamamilə silinmişdi.

# Xuraman Şuşalı mərkəzdəki evini satır

***Müğənni Xuraman Şuşalı binada yerləşən mənzilini satışa çıxarıb.***

O, bu barədə qonaq olduğu "Rəngarənag" verilişində bildirib. İfaçı qeyd edib ki, iki evini satıb böyük və lüks həyət evi almaq istəyir. Müğənni evlərindən birinin Nizami metrosu yaxınlığında yerləşdiyini və kvadratmetrinin 3000 AZN olduğunu qeyd edib.

Xuramanın sözügedən ərazidə satmaq istədiyini evin sahəsi isə 91 kvadratmetrdir.

Bu zaman aparıcı satışa şıxardığı mənzilinin qiymətinin 280 000 AZN olduğunu qeyd edib.

40_27 IYUI-QARA.qxd 11/14/2024 10:01 PM Page 3






## Nazir COP29 çərçivəsində panel müzakirələrdə iştirak edib

***BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Daha yaxşı pambıq" mövzusunda panel müzakirələr keçirilib.***

"Unikal" xəbər verir ki, "GP Cotton Holdings"in təşkilatçılığı ilə keçirilən müzakirələrin məqsədi pambıq sənayesinin dəyər zəncirində olan maraqlı tərəfləri bir araya gətirərək, davamlı pambıq təsərrüfatı təcrübələrinin inkişafı, problemləri və imkanları mövzusunda müzakirələr aparmaq olub.

Müzakirələrdə çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov, GP Cotton Holdings şirkətinin sədri Young Simpson, Better Cotton Initiative təşkilatının Standartlar üzrə Direktoru Yannis Bellinghausen, Beynəlxalq Pambıq Məsləhət Komitəsinin (ICAC) İcraçı Direktoru Erik Traxtenberg, Uz-Textile Assosiasiyasının sədri Mirmuxsin Sultanov və Prime Cotton şirkətinin baş direktoru Rövşən Mahmudov davamlı təcrübələrin dayanıqlılığı artırmaq, ətraf mühitə təsiri azaltmaq və kənd yerlərinin inkişafına dəstək olmaq istiqamətində fikirlərini bölüşüblər.

GP Cotton Holdings şirkətinin sədri Young Simpson bildirib ki, Better Cotton Initiative ilə əməkdaşlıq etmək GP Cotton və Azərbaycan üçün yalnız irəliyə doğru bir addım deyil, həm də dayanıqlı pambıq istehsalında əsas oyunçu mövqeyini tutmaq üçün böyük bir sıçrayışdır. Azərbaycan BCI standartlarına uyğunlaşaraq, Qərb ölkələrində məsuliyyətlə əldə edilən materiallara artan tələbata uyğunlaşa, daha geniş ixrac imkanlarının qapısını aça və qlobal tekstil bazarlarında etibarlı tərəfdaş kimi nüfuzumuzu yüksəldə bilər.

Tədbirdə çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov ölkəmizdə pambıqçılıqda tətbiq olunan yeni texnologiyalar, pambıq əkinlərində müasir suvarma sistemlərinin tətbiqinin genişlənməsinə yönəlmiş dəstək mexanizmləri, pambıqçılıqda dəyər zəncirinin inkişaf etdirilməsi və digər məsələlərlə bağlı fikirlərini bölüşüb.

Panel müzakirələr sual-cavab formatında davam etdirilib.

## Azərbaycanın bank sektorundan 2 milyard manatlıq öhdəlik

***Azərbaycanın bank sektoru iqlim dəyişikliyi ilə bağlı 2 milyard manatlıq öhdəlik götürür.***

Bunu "Azərbaycan Banklar Assosiasiyası" İctimai Birliyinin prezidenti Zakir Nuriyev noyabrın 11-dən başlayaraq noyabrın 22-nə qədər Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində təşkil olunmuş "Qlobal maliyyə sistemi: İqlim fəaliyyəti üçün maliyyələşmənin genişləndirilməsi" adlı tədbirdə bildirib. "Bu vəsait dayanıqlı və yaşıl layihələrin həyata keçirilməsinə yönəldiləcək", - deyə o qeyd edib.

Xatırladaq ki, Dünya Bankının məlumatına görə, 2060-cı ilə qədər Azərbaycanın karbon emissiyalarını əhəmiyyətli dərəcədə azaltmaq üçün təxminən 44 milyard ABŞ dolları tələb olunacaq və bu investisiyanın bir hissəsinin özəl sektordan, o cümlədən banklardan gəlməsi gözlənilir.

Z.Nuriyev deyib ki, Azərbaycan Mərkəzi Bankı maliyyə sektorunun tənzimləyicisi kimi 2023-2026-cı illər üçün Dayanıqlı Maliyyə Yol Xəritəsini qəbul etməklə artıq fəal addımlar atıb: "Bu yol xəritəsi bank sektorunun davamlı maliyyəyə keçidi üçün strateji baxış təqdim edir".

# Hacıbala Abutalıbov yenidən ittiham hədəfində

## Sabiq mer BŞİH başçısı olarkən tarixi binalara necə qənim kəsilib?

***Son vaxtlar Bakıda tarixi binalarla bağlı yenidən həyəcan təbilləri çalınmağa başlanılıb. Məsələn, bir neçə gün öncə iddia edilib ki, paytaxtda daha iki tarixi binanın sökülmə təhlükəsi var.***

Memar Əbdül Hüseynov sosial şəbəkələrdə yazıb ki, "Nizami City" tikinti şirkətinin nizami-city.az saytında təqdim etdiyi layihəyə əsasən kompleksin əhatə edəcəyi ərazidə iki tarixi bina var.

Kompleks Sübhi Salayev, Fuad İbrahimbəyov, Cəfər Cabbarlı, İbrahim Əbilov və Nabat Aşurbəyova küçələrinin kəsişməsində yerləşir.

Layihə bir neçə il əvvəl təsdiq olunub.

İbrahim Əbilov 55-57 ünvanında yerləşən binanın 20-ci əsrin əvvəllərinə aid tarixi tikili olduğu deyilir.



Bundan başqa, Səid Rüstəmov 49 ünvanında yerləşən tarixi binanın təmirdən əvvəl və hazırkı vəziyyəti ilə bağlı da sosial şəbəkələrdə fotoşəkillər yayılıb. Əvvəlki vəziyyətlə bağlı fotoda 1911-ci ildə inşa edilən binanın fasadında üzərinə "1827" yazılan sığorta lövhəsinin olduğu görünür. Lakin təmirin ardınca həmin lövhənin harasa qeybə çəkildiyi aydınlaşır.

Sosial şəbəkə istifadəçiləri Bakının tarixi binalarına bu cür münasibəti cinayətkarlıq kimi qiymətləndiriblər.

Qeyd edək ki, Paytaxtda sözügedən tikililərə qarşı belə xoşagəlməz yanaşma sabiq mer Hacıbala Abutalıbovun Bakıya rəhbərlik dövründə ortaya çıxıb. Hətta Mədəniyyət Nazirliyi bu il iyunun 20-də Bakı şəhərində yerləşən bir sıra tarixi binalarda aparılan təmir-bərpa və abadlıq işləri ilə bağlı açıqlama yaymışdı.

Açıqlamada uzun illər ərzində müxtəlif müdaxilələrə məruz qalmış fasadların görkəminə qaytarılması, eyni zamanda qopmuş, qırılmış yerlərinin bərpası, kommunikasiya xətlərinin və məişət qurğularının səliqəyə salınması ilə bağlı işlərin həyata keçirildiyi bildirilirdi.

Diqqətçəkən məqam isə qurumun 2000-ci illərin əvvəllərində "qəbuledilməz üsullarla" aparılan təmir-bərpa işlərinə toxunması olmuşdu. Sitat: "Təəssüflə etiraf etmək lazımdır ki, son illər ərzində abidələrimiz məhz istifadəçilər tərəfindən ciddi təsirlərə məruz qalıb - qapı-pəncərə ətrafındakı daş fasadlar rənglənib, balkon və eyvanlar şüşələnib, fasadlarda müxtəlif naqillər və borular çəkilib, birinci mərtəbələrdə fasadlar müasir materiallarla üzlənib, kondisionerlər və reklamlar quraşdırılıb və s. 2000-ci illərin əvvəllərində yuxarıda qeyd olunan qanunsuz əlavələri aradan qaldırmaq üçün fasadların ümumi təmizlənməsi, o cümlədən qəbuledilməz üsullarla, eləcə də bir çox binaların, o cümlədən daş binaların bir rəngə boyanması baş verib. Bəzi hallarda memarlıq abidələrinin nəinki tarixi görkəmi itirilib, tikililərə bərpası mümkün olmayan ziyan dəyib. Məsaməli əhəngdaşının müasir boyalarla rənglənməsi ona gətirib çıxarmışdır ki, bu gün daş örtüklərin müəyyən yerlərdə, xüsusilə abidələrimizə gözəllik yaradan təkrarsız memarlıq detallarının ovulması baş tutub".

Qeyd edək ki, 2001-2018-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı məhz Hacıbala Abutalıbov olub. Həmin dövrdə paytaxtın baş memarı vəzifəsini tutan Eldar Qasımzadə isə müsahibələrinin birində Bakı şəhərinin icra başçısı təyin olunmuş Hacıbala Abutalıbovla işləyə bilmədiyi üçün vəzifəsindən getdiyini açıqlamışdı: "Mən ona dedim, şəhərin baş memarı olduğum üçün hesab edirəm ki, bu layihə bu cür olmalıdır. Hacıbala müəllim də cavab verdi ki, Bakının başçısı da mənəm, memarı da mənəm, hakimi də mənəm".

Görünür, Mədəniyyət Nazirliyi də 2000-ci illərin əvvəllərində qəbuledilməz üsullarla paytaxtda tarixi binaların rənglənməsi məsələsinə toxunarkən özünü "Bakının hakimi" elan edən Hacıbala Abutalıbovun həmin dövrdəki fəaliyyətlərini nəzərdə tutmuşdu. Sabiq merin nazirlik tərəfindən yayılan açıqlamaya münasibət bildirməməsi, həmin açıqlamanı səssiz qarşılaması da bu ehtimalı qüvvətləndirir. Məşhur atalar sözündə deyildiyi kimi: "Susmaq razılıq əlamətidir".

İstənilən halda Hacıbala müəllimin Bakı meri olduğu dövrdən paytaxtda özünəməxsus memarlıq xüsusiyyətləri ilə seçilən, tarixi və estetik əhəmiyyətə malik binaların kimlərinsə biznes maraqlarına qurban verilməsi adi hal almışdı, elə indi də keçmişə bu biabırçı münasibətin acı bəhrələri addımbaşı qarşımıza çıxmaqdadır, üstəlik, kimlərsə Abutalıbovun zərərli ənənəsini yaşatmaqda hələ də maraqlı görünür. Əlbəttə, söhbət ilk növbədə maddi maraqdan gedir...

Xatırladaq ki, 2021-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsində Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) sabiq Aparat rəhbəri Rasim Quliyevin cinayət işi üzrə məhkəmə iclaslarından birində Hacıbala müəllimin paytaxtdakı tarixi binalara qənim kəsildiyini bir daha təsdiqləyən ilginc faktlar ortaya çıxmışdı. Məhkəmədə aydınlaşıb ki, 2019-cu il mayın 6-da keçmiş mədəniyyət naziri Əbülfəs Qarayev Baş nazirin sabiq müavini Hacıbala Abutalıbova məktub göndərib. Məktubda qeyd olunub ki, Dilarə Əliyeva 141 və 145 saylı ünvandakı ikimərtəbəli binalar yerli əhəmiyyətli tarixi abidədir. Məktubda göstərilib ki, həmin binalar qəzalı vəziyyətdədir, binalarda çatlar əmələ gəlib. Qəribədir ki, bundan sonra Hacıbala Abutalıbov həmin binaların tarixi abidələr siyahısından çıxarılması üçün aidiyyəti qurumlara müraciət edib. Aidiyyəti qurumların bəziləri həmin binaların bərpasına külli miqdarda vəsait tələb olunduğunu əsas gətirərək bu binaların tarixi abidələrin siyahısından çıxarılmasına etiraz etməyib.

Fikrimizcə əlavə şərhə ehtiyac qalmır. Sadəcə onu deyək ki, paytaxt meri olarkən "Bakını gündən-günə gözəlləşdirməsindən" ağız dolusu danışan Hacıbala müəllim yaxşı olar bircə yol da paytaxtın özünəməxsus arxitekturasını, tarixi memarlıq ab-havasını kimlərə və nə üçün qurban etdiyinə aydınlıq gətirsin...

***Toğrul Əliyev***

40_27 IYUI-QARA.qxd 11/14/2024 10:01 PM Page 4



# Dünyanın gözü Bakıda:
## Azərbaycan COP29-da mühüm mesajlar verir

***Hazırda dünyanın diqqəti yenidən Azərbaycana dikilib. Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçirilir. Artıq konfrans çərçivəsində bir sıra mühüm tədbirlər, o cümlədən də Liderlər Sammiti böyük uğurla baş tutub. Qeyd etməliyik ki, bu, BMT-nin ən böyük tədbirlərindən biridir.***

Xüsusən də Prezident İlham Əliyevin noyabrın 12-də Bakıda keçirilən COP29 Liderlər Sammitindəki çıxışı Azərbaycanın qlobal iqlim dəyişikliyi mövzusundakı prinsipial mövqeyini və qlobal əməkdaşlıq çağırışını vurğulayan əhəmiyyətli faktorlardan biridir. İqlim dəyişikliyi ilə mübarizənin yalnız bir neçə ölkənin deyil, bütün dünyanın birgə səyləri ilə həll ediləbiləcəyini xüsusilə qeyd edən dövlət başçısının çıxışı Azərbaycanın bu sahədə beynəlxalq əməkdaşlığa verdiyi önəmi və ölkənin enerji siyasətindəki yaşıl texnologiyalara yönəlmiş strategiyalarını əhatə edir.

Milli Məclisin deputatı Sahib Alıyev bildirib ki, COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında cənab İlham Əliyev 3 minə yaxın əcnəbi jurnalistin gözü qarşısında Azərbaycanı neft ölkəsi olmaqda ittiham edənlərə elə sərrast və öldürücü cavab verdi ki, əgər onlarda azacıq utanan sifət olsaydı, bir də bu mövzuya qayıtmazdılar. Deputatın qənaətincə, həmin qüvvələr mövqelərindən əl çəkməyəcəklər və "azərbaycanlı" muzdluları da məsələn, ÜMD-də pay nisbətini xatırlatmaqla çalışacaqlar ki, bizdən 30 dəfə çox qara qızıl çıxaran ABŞ-nin deyil, məhz Azərbaycanın neft ölkəsi adlandırılmağa daha çox haqq etdiyini göstərsinlər: "Halbuki burada söhbət neftin iqtisadiyyatdakı payından yox, ekologiyaya təsirindən gedir. Məhz buna görə COP29-un Azərbaycanda keçirilməsinin doğru olmadığı vurğulanırdı. Mediada ən çox bu mövzunu qabardan ölkələrdən biri isə cənab Prezidentin öz nitqində adını çəkməsə də, açıqladığı faktdan kimdən söhbət getdiyi aydın duyulan, dünyada bir nömrəli neft istehsalçısı olan ABŞ-dır. Üstəlik, orada daha çox şist nefti çıxarılır ki, bu da ekologiya üçün klassik hasilatdan qat-qat təhlükəlidir. Ona görə də Azərbaycan Prezidenti onları özlərinə və qonşuluqlarında bizdən 10 dəfə çox neft hasil edən ölkəyə baxmağa dəvət etdi ki, o da Kanadadır. ABŞ-nin qonşusu və xarici siyasətdə peyki rolunda çıxış edən Kanada dünyada neft istehsalına görə dördüncü, Azərbaycan isə 25-ci yerdədir. Əlbəttə, biz COP29-un Azərbaycanda keçirilməsinə qarşı çıxanların, onu boykota səsləyənlərin başlarına niyə ağır daş olaraq düşdüyümüzü və nə vaxt düşdüyümüzü yaxşı bilirik. Bu, Azərbaycanın neft ölkəsinə çevrildiyi ayda, yəni "Əsrin müqaviləsi"nin imzalandığı sentyabrda baş verib. Düzdür, o zaman, yəni 1994-cü ilin sentyabrında qlobal media fərqli mövqe tutmuşdu, neft hasilatını artıracağına, qərbdəkiləri yanacaqla təmin edəcəyinə görə Azərbaycanın şəninə təriflər yağdırırdı. 2020 və 2023-cü ilin sentyabrında torpaqlarımızı işğaldan azad edilib üzərində suverenliyimizi tam təmin etdikdən sonra isə yanaşma dəyişdi. Çünki bu, qərbdəkilərin maraqlarına qətiyyən cavab vermirdi. Ona görə də əgər sabah Müzəffər Ali Baş Komandanımızın vurğuladığı kimi Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında da bizi ittiham etsələr, buna təəccüblənməyəcəyəm. Və qoy etsinlər, ölkəmizdə günəşli günlərin sayının çox olması əslində bizim karbohidrogen ehtiyatlarımızdan əldə etdiyimizdən daha artıq enerji deməkdir. Birinci enerji sayəsində necə torpaqlarımızı işğaldan qurtardıqsa, ikinci də bu zəfərimizin əbədiliyini təmin etməyimizdə böyük rol oynayacaq. Axı günəşin özü kimi enerjisi də əbədidir".

Milli Məclisin deputatı Ağalar Vəliyev deyib ki, bir neçə gün ərzində paytaxtımızda hazırda dünyada çox aktual olan iqlim dəyişmələri ilə bağlı müzakirələr aparılacaq və önəmli qərarlar qəbul olunacaq. Ağalar Vəliyev belə bir mötəbər tədbirə ev sahibliyi hüququnun Azərbaycana verilməsini ölkəmizin və onun Liderinin beynəlxalq səviyyədə artan nüfuzunun göstəricisi kimi dəyərləndirib. Onun sözlərinə görə, Azərbaycan bir qayda olaraq beynəlxalq təhdidlərə qarşı qlobal həmrəyliyin gücləndirilməsi təşəbbüslərindən çıxış edir, ümumi məqsədlərə çatılması naminə fəallıq göstərir və bu işə özünün sanballı töhfələrini verir. Bu da beynəlxalq səviyyədə təqdir olunur. "Azərbaycan COP29-a ev sahibliyi hüququnu ötən ilin dekabrında Dubayda baş tutan COP28 çərçivəsində qazanıb. Təxminən 200 ölkənin yekdil qərarı ilə respublikamıza COP29-a ev sahibliyi etmək fürsəti nəsib oldu. Bu, bizim ölkəyə hörmət əlamətidir və bizim fəal rolumuzun beynəlxalq arenada qiymətləndirilməsi deməkdir", - deyə millət vəkili qeyd edib.



Deputatın sözlərinə görə, tədbirə hazırlaşmaq üçün ölkəmizin bir ildən də az vaxtı var idi. Ancaq indiyədək mühüm beynəlxalq tədbirlərin təşkilində yaxşı təcrübə qazanmış Azərbaycan qısa müddət ərzində məsuliyyətli hazırlıq həyata keçirib və hazırda da COP29-a yüksək səviyyədə ev sahibliyi edir. A.Vəliyev bildirib ki, COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr arasında konsensusun tapılmasına töhfə verməyə və Qlobal Cənubla Qlobal Şimal arasında əlaqələrin qurulmasına çalışacaq. Milli Məclisin deputatının sözlərinə görə, hazırda qlobal istiləşmə və güclü sənayenin inkişafı fonunda iqlim dəyişmələrindən bütün ölkələr təsirlənirlər. Ancaq bu, kiçik ada dövlətləri üçün bir mövcudluq məsələsidir. Buna görə də Azərbaycan o mövqedən çıxış edir ki, artıq müzakirələrdən işə keçilməli, kiçik ada dövlətlərinə real kömək göstərilməli, xüsusilə də maliyyələşmə məsələləri həllini tapmalıdır.

"Ölkəmizin COP29 kimi bir tədbirə ev sahibliyi etməsi olduqca önəmlidir. Bu gün Azərbaycan dünyamızı narahat edən hər bir məsələyə xüsusi diqqət və həssaslıqla yanaşır". Bunu Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib. "Azərbaycan bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etdiyi kimi, bu gün də növbəti beynəlxalq tədbiri ölkəmizdə keçirir. Artıq bir sıra dövlətlərin başçıları Azərbaycana gəliblər. Hətta ölkə başçısı liderlərin bir çoxunu qəbul edib və onlarla fikir mübadiləsi aparıb. Növbəti günlərdə də liderlərin və siyasətçilərin gəlməsi davam edəcək. Bir sözlə, COP29 öz axarı ilə uğurla davam edir. COP29-un Azərbaycanda keçirilməsi dövlətimizin növbəti uğurudur və ölkəmizə olan etimadı artırır. Azərbaycanın reytinqi getdikcə daha da artır. Bu gün ölkəmiz dünyanı narahat edən hər bir məsələyə xüsusi diqqət və həssaslıqla yanaşır. Azərbaycan çalışır ki, dünyanı narahat edən mövzulara öz töhfəsini versin. Şübhəsiz ki, Azərbaycan COP29-u ən yüksək səviyyədə keçirəcək və bu, ölkəmizin qarşıdakı illərdə uğurlarını daha da artıracaq", - C.Məmmədov vurğulayıb.

Deputat dövlət başçısının COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışı zamanı mühüm mesaj verdiyini xatırladıb: "Prezident bütün təzyiq cəhdlərinə baxmayaraq, Azərbaycanın öz torpaqlarını azad etdiyini xüsusilə vurğuladı. Eyni zamanda Azərbaycanın enerji resurslarının şaxələndirilməsi ilə bağlı gördüyü işlərə toxundu. Azərbaycan Qara dəniz sualtı enerji xətti ilə öz enerjisini daşıyacaq". C.Məmmədovun sözlərinə görə, Azərbaycan mədəniyyətlərarası dialoqda fəal rol oynayır: "Azərbaycan çoxtərəfliliyin tərəfdarıdır, eyni zamanda, mədəniyyətlərarası dialoqda fəal rol oynayır. Multikulturalizm dövlət siyasətimiz və həyat tərzimizdir. Azərbaycan xalqı etnik, dini mənsubiyyətindən asılı olmayaraq, digər millətlərlə hər zaman ahəngdar şəkildə, bir ailədəki kimi yaşayır".

Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı Aqşin Kərimov hesab edir ki, COP29-dan sonra Azərbaycan strateji mübarizələrin miqyasında vacib yer tutan yaşıl enerji portfeli üzrə geosiyasi tendensiyalara dərin təsir imkanı qazanacaq. Onun sözlərinə görə, bu imkan verir ki, Azərbaycan bərpa olunan enerji üzrə ixrac potensialına dünyanın güc mərkəzlərinin kapital qoyuluşuna nail olsun: "Azərbaycan qlobal enerji keçidinin əsas hissələrindən biri olmaqla həm Şərq-Qərb, həm də Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinə strateji planlarını vahid qovluqla inteqrasiya etdirsin. Dünyada yaşıl enerjiyə keçidi üzrə strategiyalar iqtisadi pozulmalarla müşayiət oluna və ənənəvi enerji resurslarının qiymətlərinin kəskin ucuzlaşması riskləri yarana bilər. Buna görə də Azərbaycan: Mümkün qeyri-müəyyənliklər fonunda tez bir zamanda Avropaya ixrac olunacaq alternativ enerji resurslarına beynəlxalq təhlükəsizlik və iqtisadi zəmanətlər almağa nail olmalıdır. Xarici siyasət üzrə yaşıl enerji imperativləri formalaşdırıb bunu regional hərəkətverici qüvvənin əsas parçasına çevirməyi bacarmalıdır. Azərbaycan mütənasib geoiqtisadi və geosiyasi nəticələri olan alternativ enerji keçidinə tələb olunan səviyyədə yiyələnmək üçün alətləri Ermənistanla münasibətlər kontekstində də nəzərdən keçirir. Hesab etmək olar ki, Azərbaycanla Ermənistan münasibətləri tam hüquqlu və hərtərəfli tənzimləmə üzrə nəticə əldə etdikdən sonra (necəliyini müzakirə etmirik) Bakı İrəvanla bərpa olunan enerji üzrə optimal birləşməni təmin edəcək danışıqlar aparsın (bu mənim ən yeni tezisimdir). Bu amil Azərbaycanın Zəngəzur dəhlizi vasitəsilə enerji siyasətinin beynəlxalq və regional dəstək qazandıran iqtisadi diplomatiya aləti ola bilər".

***M.İbrahimli***

40_27 IYUI-QARA.qxd 11/14/2024 10:01 PM Page 5



# “Nazirlər Bəyannaməsi” imzalandı



***COP29 çərçivəsində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin ətraf mühit və ekologiya nazirlərinin ilk görüşü “Nazirlər Bəyannaməsi”nin imzalanması ilə yekunlaşıb.***

Ekologiya Nazirliyindən “Unikal”a verilən məlumata görə, 2024-cü ilin iyulunda Şuşada TDT-nin Dövlət başçılarının Zirvə görüşündə imzalanmış “Qarabağ Bəyannaməsi”nin davamı olaraq TDT-yə üzv dövlətlər nazirlər səviyyəsində birgə ekoloji problemlərin həlli və dayanıqlı inkişafın təmin edilməsi istiqamətində əməkdaşlığı gücləndirmək niyyətlərini təsdiqləyiblər.

Görüşdə ətraf mühit sahəsində ortaq çağırışların həllinə nail olmaq üçün fikir mübadiləsi aparılıb, dayanaqlı inkişafı təşviq edən önəmli addımların vacibliyi, regional və beynəlxalq ekoloji problemlərin həllində birgə yanaşmanın əhəmiyyəti vurğulanıb.

Eyni zamanda, TDT-yə üzv dövlətlər birgə mövqe və ortaq fəaliyyət planı yaratmaq istiqamətində perspektivləri müəyyənləşdiriblər.

Tərəflər dayanıqlı və davamlı gələcək naminə aktiv əməkdaşlığın davam etdirilməsi niyyətlərini ifadə ediblər.

Ətraf mühit və dayanıqlı inkişaf sahəsində COP29-da səslənən planetar çağırışların və təşəbbüslərin həlli istiqamətində TDT tərəfindən birgə fəaliyyət haqqında ”Nazirlər Bəyannaməsi”nin Bakıda imzalanması COP29-a ev sahibliyi edən Azərbaycanın beynəlxalq və regional səviyyədəki liderliyini daha da möhkəmləndirir.

COP29 çərçivəsində keçirilən görüşdə TDT-yə üzv dövlətlərin- Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin ekologiya və təbii sərvətlər nazirləri, həmçinin TDT-nin Baş Katibi iştirak edib.

# Əli Əsədov Abdülhəmid Əlxəlifə ilə görüşdü

***Baş nazir Əli Əsədov noyabrın 14-də Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Beynəlxalq İnkişaf Fondunun prezidenti Abdülhəmid Əlxəlifə ilə görüşüb.***

Nazirlər Kabinetindən (NK) “Unikal”a verilən məlumata görə, görüşdə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Bakıda yüksək səviyyədə təşkil olunduğu vurğulanıb.



Neft ixrac edən ölkə olmasına baxmayaraq Azərbaycanın hələ COP29 sədrliyindən çox əvvəl yaşıl keçidi prioritet sahə elan etdiyi, iqlim dəyişikliyinə qarşı mübarizəyə mühüm töhfələr verdiyi diqqətə çatdırılıb.

Söhbət zamanı ənənəvi enerji sahəsində ətraf mühitə zərərin azaldılması ilə bağlı məsələlər müzakirə olunub.

# Hikmət Hacıyevdən Jozep Borrellə cavab

***Sizin Avropa İttifaqını “bağ”, dünyanın qalan hissəsini isə “cəngəllik” kimi təsvir etməyiniz çox təəssüf doğurur. Bu bəyanat müstəmləkə dövrünün “biz və barbarlar” hekayəsindən başqa heç nəyi xatırlatmır.***

”Unikal” xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borrellə cavabında ”X” hesabında yazıb.

Prezidentin köməkçisi qeyd edib ki, inkişaf etməkdə olan kiçik ada dövlətləri Aİ dövlətlərinin xaricdəki regionları kimi iqlim dəyişikliyindən daha çox əziyyət çəkir, lakin özünüidarədən məhrum olan xaricdəki bölgələr öz narahatlıqlarını dilə gətirə bilmir və onlara məhəl qoyulmur:

“COP29-da Azərbaycan inklüziv şəkildə hər bir səsin eşidilməsi üçün platforma təqdim edir. Nəzərə alsaq ki, bəzi Aİ ölkələri bədnam müstəmləkə idarəçiliyi və biabırçı qul ticarəti ilə məşğul olublar, bu onlara neo/müstəmləkə rejimini saxlamaq və dekolonizasiya konsepsiyasını rədd etmək üçün imtiyaz vermir”.

Hikmət Hacıyev deyib ki, Azərbaycan COP29-a ev sahibliyi edən ölkə kimi daha geniş beynəlxalq ictimaiyyət tərəfindən təqdir olunur:

“Lakin Avropa İttifaqının Xarici Siyasət Xidmətinin COP29-da iştirak etməmək üçün göstərişlər göndərməsi tamamilə qəbuledilməzdir. Həmçinin, bəzi hallarda Avropa İttifaqının Xarici Siyasət Xidməti Aİ-nin digər ölkələrini COP29-da iştirakdan çəkindirmək üçün diplomatik əlaqələrindən istifadə edib. Bununla siz COP prosesinin etibarını sarsıtmağa çalışdınız. Lakin



bütün bu cəhdlər uğursuzluqla nəticələnib. COP29-da 80-dən çox dövlət və hökumət başçısı iştirak edib, 70 mindən çox iştirakçı qeydiyyatdan keçib. Sadəcə xatırlatmaq istədim ki, COP prosesi BMT-yə və dünyaya aiddir.

Bütün bu mənasız hücumlardan asılı olmayaraq, Azərbaycan COP29-un ev sahibi və sədri kimi COP-un inklüzivliyini təmin etmək və qlobal iqlim fəaliyyət gündəliyində gözlənilən nəticələri çatdırmaq naminə tərəflərlə konstruktiv işləmək üçün əlindən gələni etməyə davam edəcək”.

# Nazir rəisi vəzifəsindən azad etdi - Yeni təyinat

***Gəncə - Daşkəsən Regional Gənclər və İdman idarəsinin rəisi İntiqam Hüseynov vəzifəsindən azad edilib.***

”Unikal”ın əldə etdiyi məlumata görə, bu barədə gənclər və idman naziri Fərid Qayıbov əmr imzalayıb.

Nazirin digər əmri ilə İ.Hüseynov Gəncə Olimpiya İdman Kompleksinə müdir təyin olunub.



# XİN-dən Paşinyana cavab

***Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Ermənistan Baş naziri Nikol Paşinyana cavab verib.***

”Unikal” xəbər verir ki, XİN sözçüsü bununla bağlı “X” platformasında paylaşım edib.

Ayxan Hacızadə bildirib ki, Paşinyanın guya Azərbaycan Konstitusiyasında Ermənistana qarşı ərazi iddialarının olması barədə ötən gün Parlamentdə dediklərinin əsası yoxdur.

XİN sözçüsü qeyd edib ki, Nikol Paşinyan bununla beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışır.

# Spiker Millətlər Birliyinin Baş katibi ilə görüşüb

***Milli Məclisin sədri Sahibə Qafarova Millətlər Birliyinin Baş katibi Patrisiya Skotlend ilə görüşüb.***

“Unikal” xəbər verir ki, görüşdə Azərbaycan və Birlik arasında əlaqələr, tərəfimizdən COP29 və bir COP29-a sədrliyi irəli sürdüyü qlobal layihələr üzrə fikir icra edilib.

Spiker Sahibə Qafarova Patrisiya Skotlendlə bundan əvvəlki görüşləri açıq şəkildə xatırlayaraq, Baş katibin bu vəzifədə ölkəmizə cari ilin may ayında reallaşan ilk səfərin Azərbaycan və Birlik ölkələri arasında institutsional iş qurmağa imkan verdiyini söyləyib. Qeyd olunub ki, bu kiçik işin praktiki xüsusiyyətlərinə Birlik çərçivəsində inkişaf etməkdə olan ada dövlətlərinə siyasi və maliyyə vəsaitlərinin göstərilməsi daxildir.

Söhbət zamanı Azərbaycanın kiçik ada dövlətlərinə göstərdiyi humanitar, texniki yardımlar, əlavə təmir Qoşulmama Hərəkatına 4 illik liderliyi irəli sürdüyü layihələr haqqında məlumat verilib.



Görüşdə vurğulanan ki, ən mühüm istiqamətlərdən biri iqlim dəyişikliyi məsələsidir. Bildirilib ki, kiçik ada dövlətləri iqlim dəyişikliyinə görə olan dəyişikliklər və onların dəyişikliklərinin ən pis təsirləri və həttа ekzistensial təhlükə ilə mübarizə aparır. Xatırlanıb ki, COP29 İqlim Dəyişikliyi üzrə İnkişaf etməkdə olan Kiçik Adalar Dövlətlərinin Liderlər Zirvəsi qoyuldu. Prezident İlham Əliyev sammitdə iştirak edib və nitq söyləyərək, iqlim dəyişikliyini kiçik adalardakı inkişaf etdirməkdə olan dövlətlərə təsir göstərən hazırkı çağırışları, həmçinin Azərbaycanın bu dövlətlərə verdiyi hərəkətlərin praktiki addımlarını qeyd edib. Bu sammit bu dövlətlərin səslərini daha da ucaldılmasına və eşidilməsinə şərait yaradır.

Söhbət noyabrın 16-17-də Milli Məclisdə İttifaq ilə birlikdə COP29 iclasında Parlament Görüşü haqqında məlumat verib. Qeyd olunub ki, iclasda müvafiq parlamentlərdən və beynəlxalq təşkilatlardan 330-dək iştirak edəcək.

Millər Birliyinin Baş katibi Patrisiya Skotlend COP29 sədrinin təhvil alması münasibətilə ölkəmizə təbriklərini çatdırıb, sədrlik fəaliyyətlərində uğurlar arzu edib. O, Azərbaycanın kiçik ada dövlətlərinə göstərdiyi yüksək qiymətləndirilib.

Görüşdə maraq doğuran başqa məsələ ilə bağlı də fikir idarə edib.

# Həmkarından COP29-un təşkilinə görə İlham Əliyevə təbrik

***“BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) mükəmməl təşkilinə görə Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edir və qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm”.***

“Qafqazinfo” xəbər verir ki, bu barədə Şimali Makedoniya Prezidenti xanım Qordana Silyanovska-Davkova rəsmi sosial şəbəkə hesabındakı paylaşımında bildirib.

“Hər iki ölkə dostluq münasibətləri saxlayır. Enerji sahəsində əməkdaşlıqda və bir sıra sahələrdə əlaqələrin dərinləşməsində qarşılıqlı maraq var. Sammitin mükəmməl təşkilinə görə sizi təbrik edir və qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm”, - deyə Şimali Makedoniya Prezidenti vurğulayıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxçıvani 5N
Tel./Faks:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

40_27 IYUl-QARA.qxd 11/14/2024 10:01 PM Page 6



# İlham Əliyev dünya liderləri ilə görüşlərini davam etdirir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də İslam İnkişaf Bankının prezidenti Məhəmməd Əl-Casir ilə görüşüb.***

"Unikal" xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin və İslam İnkişaf Bankının prezidenti Məhəmməd Əl-Casirin iştirakı ilə "Azərbaycan Respublikası və İslam İnkişaf Bankı arasında "Qız Qalası su anbarından magistral suvarma kanalının tikintisi" layihəsi üzrə Agentlik müqaviləsi, "Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Əks Əlaqə Texniki Yardım Qrant Sazişi Qız Qalası su anbarından magistral suvarma kanalının tikintisi layihəsi" və "Azərbaycan Respublikası və İslam İnkişaf Bankı arasında "Qız Qalası su anbarından magistral suvarma kanalının tikintisi" layihəsi üzrə Çərçivə Sazişi imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Nepalın Prezidenti Ramçandra Paudel ilə görüşüb.

"Unikal" xəbər verir ki, Nepal Prezidenti qonaqpərvərliyə görə minnətdarlığını bildirdi. COP29-un yüksək səviyyədə keçirildiyini deyən Ramçandra Paudel ölkəmizə səfəri zamanı Azərbaycan mədəniyyəti ilə tanış olduğunu məmnunluqla qeyd etdi. O, ümidvar olduğunu bildirdi ki, COP29 Nepal kimi inkişaf etməkdə olan ölkələrin maraqlarını nəzərə alacaqdır. Azərbaycan ilə Nepal arasında dostluq münasibətlərinin mövcud olduğunu vurğulayan ali qonaq beynəlxalq təşkilatlarda, həmçinin iqlim dəyişmələri və davamlı inkişaf məsələlərində əməkdaşlığımıza toxundu. Nepal Prezidenti Azərbaycanda şahidi olduğu inkişafın onda dərin təəssürat hissi yaratdığın dedi. O, ölkəsinin uzun keçid prosesindən sonra davamlı inkişaf mərhələsinə qədəm qoyduğunu bildirərək xarici sərmayədarları dəvət etmək istədiklərini vurğuladı, turizm və hidroenergetika sahələrinin önəminə toxundu. Ramçandra Paudel bildirdi ki, Nepalın karbon emissiyası az olsa da, onlar iqlim dəyişmələrinin mənfi fəsadları ilə üzləşirlər. Azərbaycan və Nepal prezidentlərinin ilk görüşünün tarixi əhəmiyyətini qeyd edən dövlətimizin başçısı bu görüşün əlaqələrimizin inkişafına təkan verəcəyinə ümidvarlığını bildirdi. Azərbaycan Prezidenti iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsinin önəminə toxundu. Söhbət zamanı BMT və bir sıra digər beynəlxalq təşkilatlarda əməkdaşlıq və qarşılıqlı dəstək, Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr, həmçinin Azərbaycanın COP sədrliyi dövründə iqlim dəyişikliyi mövzusunda işbirliyi ilə bağlı fikir mübadiləsi aparıldı. Nepal Prezidenti dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət etdi. Prezident İlham Əliyev dəvətə görə minnətdarlığını bildirdi. Nepal Prezidenti dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Şimali Makedoniya Respublikasının Prezidenti xanım Qordana Silyanovska-Davkova ilə görüşüb.

"Unikal" xəbər verir ki, Qordana Silyanovska-Davkova COP29-un yüksək səviyyədə təşkil edildiyini vurğulayaraq,



tədbirin açılış mərasimində Azərbaycan mədəniyyəti ilə bağlı maraqlı təqdimatın olduğunu dedi. Mədəni diplomatiyanı dəstəklədiyini qeyd edən ali qonaq Azərbaycan mədəniyyəti ilə tanış olmaqdan məmnunluğunu bildirdi. O, Azərbaycanla əməkdaşlıq üçün geniş imkanların olduğunu vurğuladı. Prezident İlham Əliyev Qordana Silyanovska-Davkovanın ölkəmizə səfərinin münasibətlərimizin genişləndirilməsinə, iqtisadi-ticari və mədəni əlaqələrin inkişaf etdirilməsi işinə təkan verəcəyinə ümidvarlığını bildirdi. Dövlətimizin başçısı COP29-la əlaqədar Azərbaycana qarşı ədalətsiz təbliğatın aparıldığını vurğuladı. Şimali Makedoniyada sərmayələr imkanlarına toxunan Prezident İlham Əliyev Azərbaycanın Balkan ölkələri ilə əlaqələrinin inkişafına önəm verdiyini qeyd etdi. Görüşdə sərmayələr, kənd təsərrüfatı, turizm, təhsil, mədəniyyət sahələrində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı. Prezident İlham Əliyev Şimali Makedoniya dövlətinin başçısını ölkəmizə, Qordana Silyanovska-Davkova isə öz növbəsində dövlətimizin başçısını Şimali Makedoniya rəsmi səfərə dəvət etdi. Dəvətlərlə bağlı qarşılıqlı minnətdarlıq ifadə olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Braziliya Federativ Respublikasının vitse-prezidenti Jeraldu Alkmin ilə görüşüb.

"Unikal" xəbər verir ki, Jeraldu Alkmin Braziliya Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı, Luiz İnasio Lula da Silvanın səhhəti ilə əlaqədar COP29-da iştirak edə bilmədiyini qeyd etdi. Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Braziliya Prezidentinə çatdırmağı xahiş etdi, Luiz İnasio Lula da Silvanın tezliklə sağalmasını arzuladı. Prezident İlham Əliyev Braziliya dövlətinin başçısını ölkəmizə rəsmi səfərə dəvət etdi. Bakının gözəlliyinin onlarda xoş təəssürat hissi yaratdığını deyən qonaq COP29-un yüksək səviyyədə təşkil edilməsi və uğurlu təşkilatçılıq münasibətilə təbriklərini çatdırdı.





Jeraldu Alkmin Azərbaycanın və Braziliyanın "Troyka" çərçivəsində COP və iqlim dəyişmələri ilə bağlı əməkdaşlığına toxundu. O, ölkəmizlə ikitərəfli münasibətlərin, həmçinin iqtisadi-ticari, kənd təsərrüfatı, sərmayələr sahələrində əlaqələrin inkişafına böyük əhəmiyyət verdiklərini dedi. Söhbət zamanı iqtisadi-ticari məsələlər üzrə işçi qrupun yaradılması, sərmayələr, birgə istehsal müəssisələri, turizm, birbaşa hava əlaqələrinin qurulması ilə bağlı fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Monteneqronun Prezidenti Yakov Milatoviç ilə görüşüb.

"Unikal" xəbər verir ki, Yakov Milatoviç COP29-un yüksək səviyyədə keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O vurğuladı ki, COP29-u uğurlu tədbir adlandırmaq olar. Monteneqro Prezidenti COP29-da 80-dən çox dövlət və hökumət başçısının iştirak etdiyini dedi və bildirdi ki, bu tədbir, eyni zamanda, Azərbaycanın nailiyyətlərini dünyada göstərir. Yakov Milatoviç vurğuladı ki, Monteneqro Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəkləyib. Qonaq Azərbaycanın işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa və quruculuq işlərini qeyd edərək, ölkəmizin çox böyük və nadir inkişaf yolu keçdiyini məmnunluqla vurğuladı. Azərbaycanın COP29-u qısa müddət ərzində təşkil etdiyini deyən Prezident İlham Əliyev bildirdi ki, ölkəmiz COP-a sədrliyə başladığı vaxtdan bizə qarşı feyknyus və qarayaxma kampaniyasına start verilib. Bu kampaniyada elə təqdim edilir ki, guya Azərbaycan ətraf mühiti çirkləndirir. Amma reallıq belə deyil. Dövlətimizin başçısı dedi ki, bəzi dairələr Azərbaycanın uğurlarını, inkişafını və müstəqil siyasətini həzm edə bilmirlər. Prezident İlham Əliyev Azərbaycanın 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurla sədrlik etdiyini də xatırlatdı. İşğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını deyən dövlətimizin başçısı qeyd etdi ki, ermənilər həmin ərazilərimizi minalayıblar, müharibə bitəndən indiyədək 300-dək Azərbaycan vətəndaşı minaların partlaması səbəbindən ya həlak olub, ya da ağır yaralanıb. İşğal dövründə Ermənistan şəhərlərimizi və kəndlərimizi dağıdıb. Görüşdə ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, turizm, sərmayələr sahələrində əməkdaşlıq imkanları ilə bağlı fikir mübadiləsi aparıldı. Monteneqro Prezidenti dövlətimizin başçısını ölkəsinə, Azərbaycan Prezidenti isə Monteneqro dövlətinin başçısını ölkəmizə rəsmi səfərə dəvət etdi. Dəvətlərlə bağlı qarşılıqlı minnətdarlıq ifadə olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də BMT Baş Assambleyasının 79-cu sessiyasının Prezidenti Filemon Yanq ilə görüşüb.

"Unikal" xəbər verir ki, BMT-nin Azərbaycan ilə əlaqələrinin çox yüksək səviyyədə olduğunu deyən Filemon Yanq ölkəmizin BMT Nizamnaməsinə tam sadiq olduğunu vurğuladı. COP29-un yüksək səviyyədə təşkil olunduğunu qeyd edən BMT Baş Assambleyasının 79-cu sessiyasının Prezidenti bu tədbirin keçirilməsinin heç də asan olmadığını, hazırlıq prosesinin cəmi 11 ay çəkdiyini vurğuladı. Filemon Yanq Azərbaycanın yaşıl keçid və yaşıl enerji konsepsiyalarını qeyd etdi. Qonaq BMT Baş Assambleyasının gənc, peşəkar azərbaycanlı kadrları dəstəklədiyini dedi. Prezident İlham Əliyev Azərbaycanın qısa müddət ərzində COP29-u yüksək səviyyədə təşkil etdiyini vurğulayaraq dedi ki, bu, ölkəmizin iqlim dəyişmələri ilə bağlı mübarizədə beynəlxalq səyləri dəstəkləmək əzmini göstərir. COP prosesində artıq ilkin irəliləyişlərin olduğunu qeyd edən dövlətimizin başçısı COP29-da Paris Sazişinin 6-cı bəndi və beynəlxalq maliyyə qurumlarının yeni maliyyə hədəfləri ilə bağlı açıqlamaları müsbət hal kimi qiymətləndirdi. Azərbaycan Prezidenti ölkəmizə və COP-a qarşı geniş təbliğat kampaniyasının aparıldığını dedi. Prezident İlham Əliyev Azərbaycanın çoxşaxəli diplomatik əlaqələrinin olduğunu qeyd edərək, ölkəmizin geniş coğrafi əhatəsi olan strateji tərəfdaşlıq münasibətləri qurduğunu bildirdi. Dövlətimizin başçısı Qlobal Cənub ölkələri ilə inkişaf etməkdə olan ölkələr arasında həmrəyliyin artırılmasının vacibliyini vurğulayaraq, dünyada mövcud olan geosiyasi arxitekturanın dəyişdirilməlisinin və ədalətin təmin olunmasının zəruriliyini bildirdi.

40_27 IYUl-QARA.qxd 11/14/2024 10:02 PM Page 7






## COP29-da iştirak edən media nümayəndələrinin sayı açıqlandı

***Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) hazırda dünyanın diqqət mərkəzində duran əsas hadisələr sırasındadır. Beynəlxalq tədbiri öz mətbu orqanlarında işıqlandırmaq üçün dünyanın əksər ölkələrinin media qurumlarının təmsilçiləri Bakı şəhərindədir və 70 mindən çox tədbir iştirakçısının 3618 nəfəri media mənsubudur.***

"Unikal" xəbər verir ki, bu barədə məlumat COP29-un gündəlik mətbuat konfransında verilib.

Qeyd edilib ki, iştirakçıların növbəti böyük qismini isə beynəlxalq müşahidəçiləri (13 min 275 nəfər) təşkil edir. İştirakçı tərəflərin rəsmi təmsilçilərinin sayı isə 35 min nəfərə yaxındır.

## "AzərEnerji" ilə bu şirkətlər arasında sənəd imzalandı

***COP29 çərçivəsində "AzərEnerji" ASC-nin rəhbəri Baba Rzayev və "GE Vernova" şirkətinin Avropa, Yaxın Şərq və Afrika üzrə Qaz Enerjisi istiqamətində prezidenti və baş icraçı direktoru Cozef Anisin iştirakı ilə "yaşıl zona"da tədbir keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirin əsas mövzusu "GE Vernova" şirkəti tərəfindən "Azərenerji" ASC-nin Şirvan şəhərində yerləşən "Cənub" Elektrik Stansiyasının qaz turbinlərindən birinin 100% hidrogen yanacağı ilə işləməyə keçirilməsi layihəsi olub.

Tədbirin yekunu olaraq, "Azərenerji" ASC-nin rəhbəri Baba Rzayev və "GE Vernova" şirkətinin səlahiyyətli nümayəndəsi Cozef Anis arasında sözügedən layihə ilə bağlı sənəd imzalanıb.

COP29 çərçivəsində "Schneider Electric" şirkətinin Beynəlxalq əməliyyatlar üzrə icraçı vitse-prezidenti Maniş Pant, şirkətin Türkiyə və Mərkəzi Asiya üzrə prezidenti İsmayıl Yamangil bu gün "AzərEnerji" ASC-nin "yaşıl zona"da yerləşən pavilyonunda olublar. Daha sonra qonaqların "AzərEnerji" ASC-nin rəhbəri Baba Rzayevlə görüşü olub. Görüşdə mövcud əlaqələr və perspektiv layihələr ətrafında müzakirələr aparılıb.

Görüşün sonunda "Schneider Electric" və "AzərEnerji" ASC arasında bərpa olunan enerji mənbələrinin enerjisistemə inteqrasiyası, enerji monitorinqi, planlaşdırma və digər sahələri əhatə edən anlaşma memorandumu imzalanıb.

# "Bu, Azərbaycana göstərilən etimadın göstəricisidir"

## Siyavuş Novruzov: "Əfsuslar olsun ki, burada da siyasi oyunbazlıqla məşğul olmaq istədilər"

***Milli Məclisin deputatı Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, Azərbaycanda keçirilən COP29 tədbirinin ölkəmizə hansı töhfələr verəcəyindən, Ermənistanın bu cür mühüm tədbirə qatılmamasından və bəzi dairələr tərəfindən bu tədbirə qarşı boykotun təşviq edilməsinin səbəblərindən danışıb.***

***-Siyavuş müəllim, noyabrın 11-dən başlayaraq Azərbaycanda 72 min iştirakçının qeydiyyatdan keçdiyi COP29 tədbiri keçirilir. Bu tədbirin ölkəmizdə keçirilməsini necə qiymətləndirirsiz?***

-COP29-un ölkəmizdə keçirilməsi Azərbaycana olan böyük etimadın göstəricisidir. Bu, Azərbaycanın dünyada qazandığı nüfuz, Prezident İlham Əliyevin dünyada apardığı siyasətin bariz nümunəsidir. Həmçinin, Azərbaycanın inkişaf etmiş dövlət olması dünya ölkələri tərəfindən qəbul olunub. Ölkəmizdə istənilən beynəlxalq tədbir yüksək səviyyədə keçirilib. Bildiyiniz kimi, bundan əvvəl də Azərbaycan bir neçə beynəlxalq tədbirə ev sahibliyi edib. Bu baxımdan, COP29 tədbiri ilə bağlı 200 dövlətin yekdilliklə Azərbaycana səs verməsi ölkəmizin apardığı haqq işinə və ərazi bütövlüyünün təmin olunmasına dəstəkdir. Ona görə ki, ərazi bütövlüyümüzü təmin etdikdən sonra dünya dövlətləri tərəfindən belə qərar verildi. Bizi istəməyən Fransa, Niderland və başqa ölkələr guya ermənilərin etnik təmizləməyə məruz qalması və digər məsələləri Vətən müharibəsindən sonra ortaya atmışdılar. BMT-nin 207 dövlətindən 200-ü COP-a dəstək verməklə Azərbaycanın işinin haqq olduğunu təsdiqlədilər. Dəstəklədilər ki, Azərbaycanda insan hüquqları yüksək şəkildə qorunur, ekologiyaya qarşı diqqət böyükdür və iqlimin tarazlaşmasına töhfələr veririk. Bu da sadə şəkildə ortaya gələn məsələ deyildi. Azərbaycan bundan əvvəl ən çətin dövrdə Qoşulmama Hərəkatına rəhbərlik edib. Bunlar mərhələli şəkildə ona gətirib çıxardı ki, Azərbaycan COP tədbirinə namizədliyini irəli sürəndə dərhal bütün dövlətlər dəstəklədilər. Azərbaycanın təşkilatçılığına, hər bir yerdə insanların hüquq və azadlıqlarının qorunmasına, o cümlədən kiçik ada dövlətlərinin hüquqlarının qorunmasına, müstəmləkəçiliyin əleyhinə, başqa dövlətlərin digərlərinin daxili işinə qarışmasının əleyhinə olduğunu bilərək bu tədbirin ölkəmizdə keçirilməsinə səs verdilər. Hətta Ermənistan belə səs verdi ki, COP29 tədbiri Azərbaycanda keçirilsin. Tədbirin təşkilatçılıq məsələləri yüksək səviyyədə təşkil olunub.

***-Tədbirin boykot edilməsini təşviq edən dairələr var idi. Bu cür addımların məqsədi nə idi?***

-Xaricdə oturub özlərinə bloger deyənlər, erməni çörəyi yeyən bəzi azərbaycanlılar, xarici kəşfiyyata işləyənlər yalan məlumatlar yayırlar ki, tədbirdə deyilən qədər şəxs iştirak etmədi və s. Bununla bağlı rəsmi statistika var. Bunların hamısı xalqın gözünün qarşısındadır. Avropa dövlətlərinin əksəriyyəti bu tədbirdə iştirak edirlər. Böyük Britaniya, Belçika, İtaliya, Çexiya, Polşa, Bolqarıstan, Macarıstan, Slovakiya, Sloveniya və s. ölkələrin adını çəkmək olar. O cümlədən, dünyanın digər qitələrindən də aparıcı dövlətlər tədbirə qatılıb. Ayrı-ayrı dövlətlərdən prezidentlərin, baş nazirlərin, vitse-prezidentlərin və digər nümayəndə heyətlərinin gəlişi davam edir. Bu, Cənubi Qafqazda olan ən böyük tədbirlərdən birincisidir və Azərbaycan buna ev sahibliyi edir. Bu, Azərbaycana göstərilən etimadın göstəricisidir.

***-Məlum olduğu kimi, Azərbaycan və BMT tərəfindən COP29-da iştirak etmək üçün Ermənistana dəvət göndərilib. Sülh müqaviləsinin tezliklə imzalanmasına hazır olduğunu bildirən Ermənistan isə bu tədbirə qatılmayıb. Onlar burada iştirak etməməklə nələri itirirlər?***



-Ermənistan bu tədbirdə iştirak etməməklə çox şey itirdi. Onlar bu tədbirə qatılmaqla göstərə bilərdilər ki, sülh sazişinə sadiqətlidirlər. Yəni, onun tezliklə imzalanmasını istəyirlər. Göstərə bilərdilər ki, Ermənistan müstəqil dövlətdir və özləri müstəqil qərar verirlər. Bir daha bəlli oldu ki, Ermənistan indiyə qədər başqa dövlətin təsiri altında idi və onun tapşırıqlarını yerinə yetirirdi. İndi isə Fransanın təsiri altındadır, onların tapşırıq və qərarlarından kənara çıxa bilmir. Ermənistanı Fransanın səfiri idarə edir. Bu ölkədə oturub və idarəçiliklə o məşğuldur. Bu da dünyaya bir sübut və mesajdır. Baxsınlar ki, bu Azərbaycanın deyil, BMT-nin tədbiri idi. Azərbaycan buna ev sahibliyi edir. Həm BMT, həm də Azərbaycan tərəfindən dəvət göndərilib. Təhlükəsizlik və digər məsələlərə bağlı tam şəkildə zəmanət verilib. Əfsuslar olsun ki, burada da siyasi oyunbazlıqla məşğul olmaq istədilər. Azərbaycanın ərazisində cinayət törətmiş, etnik təmizləmə ilə məşğul olmuş, Xocalı soyqırımı törətmiş şəxslərə siyasi məhbus adı verib azadlığa çıxmasını şərt olaraq ortaya atmaq qeyri-etik, iqlim konfransına yaraşmayan hərəkətdir. Hər bir dövlət bu tədbirə öz töhfəsini verməlidir. Ekologiyaya ən çox ziyan vuran ölkələrdən Fransa və Niderlandı göstərmək olar. Müəyyən nüvə silahlarının sınaqları kiçik ada dövlətlərinin ərazisində keçirilir. Onların çaylarını çirkləndirməklə məşğuldurlar. Bu cür addımlarla ekologiyaya ciddi ziyan vururlar. Həmçinin Ermənistan işğal dövründə Azərbaycanın ekologiyasına xeyli ziyan vurub. Çaylarımızın çirklənməsi, onların vasitəsilə partlayıcıların axıdılması, terror aktlarının həyata keçirilməsi və s. Belə ki, oyuncaqların içərisinə partlayıcı qurğular yerləşdirərək çaylar vasitəsilə göndərirdilər. Bu isə uşaqların ölməsinə səbəb olurdu. Eyni zamanda, meşələrimizi məhv edirdilər. Məbədlərin, məscidlərin və mədəniyyət abidələrinin dağıdılmasının şahidiyik. Hazırda Ermənistan ərazisində olan Metsamor Atom Elektrik Stansiyası bəşəriyyət üçün böyük təhlükədir. Bu AES-in istifadə müddəti keçib və havanı zəhərləyir. Zəmanət yoxdur ki, bu gün və ya sabah partlamayacaq. Bunun nəticəsində - Türkiyə, İran, Azərbaycan, Gürcüstan və başqa ölkələr ziyan çəkəcəklər. Bu konfransın özündə Azərbaycan güclü mesajları irəli sürdü. Azərbaycan tərəfi məsələ qaldırdı ki, konfrans dövründə müharibələr dayansın. Müharibələrin dayanmasının özü ekologiyaya xidmətdir. Raketlər atılmır, bombalar partlamır, meşələr qırılmır, sular zəhərlənmir, bəndlər aşmır və s. Belə ki, müharibələrin dayanması bəşəriyyətin ən vacib yaratdığı olan insan itkisinə səbəb olmasın.

Eyni zamanda, Azərbaycan məsələ qaldırıb ki, kiçik ada ölkələrinə yardım olunsun. Onlardan bəhrələnən dövlətlər bu məsələyə vəsait qoysunlar və havaya atılan ziyanlı qazlar azaldılsın. Bu tədbirdə dövlət başçıları ilə yanaşı böyük şirkətlər də iştirak edir. Onların hər biri investisiya ilə gəliblər. Mərkəzi Asiya ölkələri ilə Səudiyyə Ərəbistanı və Azərbaycanın birlikdə imzaladığı protokola uyğun olaraq Asiya ilə Avropanı birləşdirən Qara dənizin altı ilə yaşıl enerjinin daşınmasından söhbət gedir. Burada Gürcüstan, Səudiyyə Ərəbistanı, Qazaxıstan, Özbəkistan iştirak edir. Bu layihənin müəllifi Azərbaycandır. Ermənistan da burada iştirak etsə idi, onlar da hansısa layihələrdə iştiraklarını təklif edə bilərdilər. İşğalçılıq nəticəsində neçə illər böyük layihələrdən kənarda qalıblar. Yaşıl enerji bu gün dünyanın bir nömrəli vacib məsələsidir. Ermənistan onun alıcısına çevrilə bilərdi ki, özünü təmin etsin. Və yaxud ərazisində müxtəlif şirkətlər külək, günəş enerjisindən istifadə edərək həm bu ölkənin özünün təminatını ödəyərdilər, həm də satışını həyata keçirə bilərdilər. Bu şansların hamısı itirilir. Tək yardımla dolanmaqla heç nə olmayacaq. Bu yardım kəsiləndən sonra orada yaşayış indikindən də aşağı vəziyyətə düşəcək. Orada əsasən Rusiya şirkətləri fəaliyyət göstərir. Bu şirkətlər tam şəkildə fəaliyyətini dayandırsa, Ermənistanı 90 faiz işsizlik əhatə edəcək.

***Anar Kəlbiyev***

40_27 IYUl-QARA.qxd 11/14/2024 10:02 PM Page 8



# Cahangir Əsgərova iflas şoku...

## AZAL-ın sabiq şefinin ailə bankı müflis olur?



***Müştərilər tərəfindən Premium Bank ASC-yə yerləşdirilən depozitlərin həcmi azalıb.***

Belə ki, cari ilin əvvəli ilə müqayisədə bu ilin ilk rübündə fiziki şəxslərin "Premium Bank"dakı depozitləri 8% və ya 40,5 milyon manat, hüquqi şəxslərin bankdakı depozitləri isə 13,7% və ya 13,1 milyon manat azalmışdı. Oktyabr ayının əvvəlinə olan məlumata görə isə fiziki şəxslərin "Premium Bank"da 290,4 milyon, hüquqi şəxslərin də 82,8 milyon manat, yəni ümumilikdə 373,2 milyon manat depoziti olub. Lakin bu rəqəmlə bağlı diqqət çəkən nüans var. Həmin nüansa keçmədən öncə məlumat üçün bildirək ki, 1994-cü ildə "AZAL Səhmdar Kommersiya Bankı" kimi fəaliyyətə başlayan, daha sonra adını 2 dəfə dəyişərək, əvvəlcə "Bank Silk Way" ASC, hazırda isə "Premium Bank" ASC adlanan bankın səhmlərinin 84,5%-i Zərifə Həmzəyevaya məxsusdur.

İndi isə gələk bir qədər əvvəl haqqında danışdığımız önəmli nüansa...

Məsələ burasındadır ki, Cahangir Əsgərov AZAL-ın prezidenti vəzifəsindən azad olunduqdan (1 sentyabr 2023) sonra müştərilərin "Premium Bank"dakı depozitləri ümumilikdə 27% və ya 139,1 milyon manat azalıb. Belə ki, Cahangir Əsgərov hələ həmin vəzifədə olan zaman açıqlanan sonuncu hesabatda bankın 512,3 milyon manat depozit portfelinə sahib olduğu göstərilmişdi.

Oktyabrda açıqlanan sonuncu maliyyə hesabatında isə, yuxarıda da vurğuladığımız kimi, bankın depozit portfelinin 373,2 milyon manata düşdüyü qeyd olunub.

Yəni söhbət təxminən 150 milyon manatlıq azalmadan gedir. Bu da yerli KİV-də Əsgərovların ailə bankının müflis ola biləcəyinə dair iddiaların ortaya atılmasına gətirib çıxarıb. Lakin maraqlıdır ki, qarşı tərəf həmin iddialarla bağlı hələlik münasibət bildirməyib.

Mediada yazılanlardan belə aydınlaşır ki, C.Əsgərovun ailə biznesinin əsas idarəçisi məhz Zərifə Həmzəyevadır. Son olaraq bu ilin martında "Caspian Energy Club" şirkətində İdarə Heyətinin yeni tərkibində Zərifə xanım da yer alıb.

Qeyd edək ki, Zərifə Həmzəyeva ictimaiyyətdə əsasən "Gazelli Group" MMC-nin rəhbəri kimi tanınır. Sözügedən MMC 2008-ci ildə dövlət qeydiyyatına alınıb. Nizamnamə kapitalı 42 milyon 32 min manat olan "Gazelli Group"un qanuni təmsilçisi Nərmin İsmayılovadır.

Bundan başqa, C.Əsgərovun iki qızının - Cəmilə və Məlahət Əsgərovaların ölkə xaricində çox sayda şirkət sahibi olduqları da məlumdur.

Ümumiyyətlə isə bu ailənin Azərbaycandan kənardakı biznesinin mərkəzi sayılır. Hərçənd Əsgərovlar Gürcüstan da daxil olmaqla bir neçə xarici ölkədə on milyonlarla manatlıq kapital hesabına yaradılmış saysız-hesabsız şirkətin sahibləridirlər.

"Premium Bank"a qayıtsaq, hələ ötən ilin bu vaxtları yerli media yazırdı ki, onun problemli kreditləri digər özəl banklarla müqayisədə kifayət qədər yüksəkdir. Həmin vaxt "Ekonominfo.az" bildirirdi ki, 2023-cü ilin ikinci rübünün yekununda "Premium Bank" ASC-nin problemli kreditlərinin həcmi 135,2 milyon manat olub. "Vaxtında geri qaytarılmayan kreditlərin həcmi ümumi kreditlərin 28,7%-ni təşkil edib. Müqayisə üçün qeyd edək ki, problemli kreditlərin Azərbaycanda bank sektoru üzrə orta göstəricisi 6,3% təşkil edib. Rəqəmlərdən də göründüyü kimi "Premium Bank" ASC-nin problemli kreditləri ölkə üzrə qeydə alınan orta göstəricidən dəfələrlə yüksəkdir" deyə məlumatda vurğulanırdı.

Bir sözlə, Cahangir müəllim öz postunu itirdikdən sonra onun adı çəkilən ailə şirkəti ilə bağlı məlumatlarda neqativ notlar üstünlük təşkil edir.

Xatırladaq ki, C.Əsgərov 1996-cı ildən "Azərbaycan Hava Yolları" QSC- nin sədri idi. 27 il AZAL aviaşirkətinə rəhbərlik edən Əsgərov bu posta gəlməzdən öncə aviadəstə kapitanı, eskadrilya komandirinin müavini, eskadrilya komandiri, 1993-cü ildən adı çəkilən QSC-nin Türkiyədə baş nümayəndəsi vəzifələrində işləyib.

İddialara görə, Əsgərov AZAL-a rəhbərlik etdiyi dövrdən həm də Milli Aviasiya Akademiyasında çalışırdı. Belə ki, onun hazırda da bu Akademiyanın Avianəqliyyat istehsalatı kafedrasının müdiri vəzifəsini tuturdu. Cahangir müəllim texnika elmləri namizədi olaraq Milli Aviasiya Akademiyasının dosenti idi.

Lakin bu ilin aprelində onun adı çəkilən təhsil ocağındakı vəzifəsini də itirdiyinə dair məlumat yayıldı. Bildirildi ki, Əsgərovun adı Milli Aviasiya Akademiyasının saytından da çıxarılıb. Belə ki, saytda hazırda Avianəqliyyat istehsalatı kafedrasının müdirinin texnika üzrə fəlsəfə doktoru, dosent Elman Nəcəfov olduğu göstərilir.

Sonda digər sabiq yüksək çinli məmurların çoxu ilə müqayisədə Əsgərovun işsiz qaldıqdan sonra tamamilə kölgəyə çəkildiyini və ictimaiyyət arasında bircə dəfə belə görünmədiyini də vurğulayaq.

***Sənan Mirzə***

# COP29 çərçivəsində Parlament Görüşü keçiriləcək




***Noyabrın 16-da və 17-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə Parlament Görüşü keçiriləcək.***

"Unikal" xəbər verir ki, 66 ölkədən və beynəlxalq təşkilatlardan 92 nümayəndə heyətinin, 330-dək iştirakçının qatılacağı tədbirdə 12 spiker və vitse-spiker başda olmaqla 167 parlament üzvünün iştirakı gözlənilir.

Parlament Görüşündə keçiriləcək sessiyalarda İqlim dəyişmələrinin real təsirləri, İqlim öhdəliklərinin reallığa çevrilməsi üçün təsirlərin azaldılması ilə bağlı iddialı tədbirlərin artırılmasında və milli səviyyədə müəyyən edilmiş töhfələrin həyata keçirilməsində parlamentlərin rolu, İqlim maliyyələşdirilməsinin qlobal arxitekturasının inkişafı, İqlim dəyişmələrinə qarşı dayanıqlılığın artırılması, bu sahəyə hərtərəfli və ədalətli yanaşmanın təşviqi, İqlim dəyişmələri ilə mübarizə aparmaq və ədalətli çıxışı təmin etmək məqsədilə texnologiyadan istifadə, Dəyişən iqlim şəraitində sağlamlıq və qida təhlükəsizliyi səyləri, İnsan yerdəyişməsinin və iqlim dəyişmələrinin idarə edilməsi və digər mövzularda müzakirələr aparılacaq, yekun sənəd qəbul ediləcək.

Tədbir çərçivəsində bir sıra ikitərəfli görüşlərin keçirilməsi də nəzərdə tutulur.

# Zaur Mikayılov COP29 çərçivəsində tədbirdə iştirak etdi

***Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Dünya Bankının təşkil etdiyi "Ambisiyaların artırılması: Avropa və Mərkəzi Asiyada enerji və su sistemlərinin transformasiyası" mövzusunda yüksək səviyyəli tədbirdə iştirak edib.***

"Unikal" xəbər verir ki, Zaur Mikayılov su sektorunda itkilərin azaldılması və islahatlar çərçivəsində görülmüş işlərdən, eləcə də iqlim dəyişikliyinin yaratdığı təzyiqlərə qarşı mübarizə istiqamətlərindən danışıb.

Tədbirdə iştirak edən Albaniyanın baş nazirinin müavini xanım Belinda Balluku, Rumıniyanın Energetika naziri cənab Sebastian Burduja və Dünya Bankının vitse prezidenti cənab Juergen Voegele COP29 tədbirinin Azərbaycanca təşkil edilməsini yüksək qiymətləndirdiklərini qeyd etməklə yanaşı, yaxın gələcəkdə həyata keçirilmiş yaşıl enerji layihələri barədə ictimaiyyətə məlumat veriblər.

# Allahşükür Paşazadə Misirə dəvət edildi



***Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-da iştirak etmək üçün Bakıya təşrif buyurmuş Əl-Əzhər Əl-Şərifin Baş İmamı, Şeyx dr. Əhməd Əl-Tayyib ilə görüşüb.***

Misirin dünya şöhrətli din xadimi ilə baş tutan səmimi görüş zamanı Azərbaycan və Misir arasında dərin tarixi köklərə malik dini-mənəvi əlaqələr barədə danışıldı, inkişaf perspektivləri müzakirə edilib.

COP29 çərçivəsində Dini Liderlərin Qlobal Sammitinin ünvanına Əl-Əzhər Əl-Şərifin Baş İmamı, Şeyx dr. Əhməd Əl-Tayyibin göndərdiyi müraciət məktubuna və Misir dövlətinin tədbirdə yüksək səviyyədə təmsil olunmasına görə dərin təşəkkürlərini bildirən Şeyxülislam A.Paşazadə qlobal forumun qəbul etdiyi Bakı Bəyannaməsi və tədbirin əhəmiyyəti barədə ətraflı məlumat verib.

Əl-Əzhər Əl-Şərifin Baş İmamı Əhməd Əl-Tayyib region ölkələri ilə əlaqələrin yaxşılaşdırılmasında Azərbaycanın xüsusi rolunun olduğunu deyərək, gələn ilin fevralında Bəhreyndə keçiriləcək dinlərarası və sünni-şiə dialoqunda Azərbaycanın iştirakının vacibliyinə diqqəti çəkdi. Azərbaycanın dinlərarası və İslamdaxili dialoq sahəsində çox uğurlu örnək təcrübəsinin olduğunu vurğulayan böyük imam Əhməd Əl Tayyib sədri olduğu Müsəlman Ağsaqqalları Şurasının üzvü - Şeyxüslislam A.Paşazadəni Bəhreyn forumu öncəsi müzakirələr üçün Misirə dəvət edib.

Görüşdə Azərbaycan Respublikasının Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri R. Məmmədov, Misir müftisi Dr. İyad Nəzir və b. iştirak ediblər.

40_27 IYUl-QARA.qxd 11/14/2024 10:02 PM Page 9






## COP29 çərçivəsində Maliyyə Günü keçirilir

***COP29 çərçivəsində Maliyyə, İnvestisiya və Ticarət Günü (Climate FIT Day) qeyd olunur.***

"Unikal" xəbər verir ki, bu gün Bakı Təşəbbüsü (BICFIT) çərçivəsində İqlim Maliyyəsi, İnvestisiya və Ticarət sahəsində yeni təşəbbüslərin təqdimatı baş tutacaq.

Qeyd edək ki, noyabrın 11-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyasının açılışı olub.

COP29 çərçivəsində ən yüksək səviyyəli tədbir - Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammiti noyabrın 12-13-də təşkil olunub.

Noyabrın 22-dək Bakı Stadionunda keçiriləcək COP29 Azərbaycanın bu günədək təşkil etdiyi ən nəhəng tədbirdir və regionda ilk dəfə Azərbaycanda baş tutur.

COP29-dan əsas gözlənti iqlim maliyyəsi ilə bağlı ədalətli və ambisiyalı Yeni Kollektiv Kəmiyyət Hədəfinin (NCQG) razılaşdırılmasından ibarətdir.

COP29 Sədrliyi tərəfindən iqlim fəaliyyəti ilə dayanıqlı inkişaf məqsədləri arasında əlaqəni ehtiva edən, yaşıl enerji dəhlizləri, yaşıl enerji saxlancları, iqlim dayanıqlılığı üçün harmoniya, təmiz hidrogen, orqanik tullantılarda metanın azaldılması, yaşıl rəqəmsal fəaliyyət və digər mövzuları əhatə edən 14 təşəbbüs irəli sürülüb.

İqlim maliyyəsinin yaradılması fəaliyyət üçün şərait yaradan əsas prioritet olmaqla yanaşı, hamını bir araya gətirməklə 1,5ºC öhdəliyinin yerinə yetirilməsinə töhfə verəcək.

## Hakim bu stadionda ölübmüş - Prokurorluq araşdırmaya başladı

***Xəbər verdiyimiz kimi, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Siyavuş Hacıyev futbol oynayarkən vəfat edib.***



"Unikal"ın əldə etdiyi məlumata görə, hadisə ötən gün saat 18 radələrində AMEA-nin yerləşdiyi binanın həyətində "AZFAR Group"a məxsus stadionların birində baş verib.

Faktla bağlı rayon prokurorluğunda araşdırma aparılır.

***Murad İbrahimli***

# Vəzifəlilərin və biznesmenlərin "dissertasiya bazarı" bağlanır

## Ali Attestasiya Komissiyasından sərt addımlar... - Elmi dərəcə verilməsindən imtina edilən şəxslər arasında kimlər var?

***Prezident yanında Ali Attestasiya Komissiyası səkkiz nəfərə elmlər doktoru elmi dərəcəsi verilməsindən imtina etməsinin səbəbini açıqlayıb. Qurumdan Sputnik Azərbaycan-ın sorğusuna cavabda bildirilib ki, Komissiya tərəfindən elmi dərəcələrin verilməsindən imtina barədə qəbul edilən qərarlar müvafiq elm sahələri üzrə ekspert şuralarının tövsiyələri əsasında və aşağıdakı səbəblərlə bağlı olur:***

- dissertasiyalarda müəllifinə və mənbəyinə istinad vermədən digər müəlliflərin materiallarından istifadə edilməsi (plagiat);
- dissertasiya müdafiələri zamanı prosedur pozuntularına yol verilməsi;
- dissertasiyalarda müvafiq elm sahəsində böyük əhəmiyyət kəsb edən problemin yeni həllinin təklif olunmaması;
- böyük tətbiqi əhəmiyyəti olan iqtisadi, texniki və texnoloji işləmələrin təkmilləşdirilmiş elmi şərhinin verilməməsi;
- hər hansı bir elmi məsələnin (problemin) əsaslandırılmış qoyuluşunun verilməməsi;
- dissertasiyaların iddiaçıların müstəqil elmi işi olmaması və s.



Qurumdan o da bildirilib ki, Komissiya öz fəaliyyətində qanunilik, obyektivlik, şəffaflıq və peşəkar etik normalara əməl edilməsi prinsiplərini əsas tutur.

Qeyd edək ki, Prezident yanında Ali Attestasiya Komissiyasının məlumatına görə, bu ilin birinci yarısı 98 nəfərə fəlsəfə doktoru, 8 nəfərə isə elmlər doktoru elmi dərəcəsi verilməsindən imtina edilib.

"Səkkiz nəfərə elmlər doktoru elmi dərəcəsi verilməsindən imtina edilməsi xəbəri elmi mühitin korlanmasından xəbər verir. Amma bu həm də onu göstərir ki, artıq Prezident yanında Ali Attestasiya Komissiyası elmi əxlaqa yad olan işlərlə mübarizəyə start verib. Bu çox müsbət addımdır. Çünki, elmi mühitin sağlamlaşması vacib məsələdir". Bunu Sputnik Azərbaycan-a açıqlamasında "Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti" İctimai Birliyinin sədri İlqar Orucov söyləyib.

O, təəssüflə bildirib ki, hələ də elmi dərəcə almaq iddiasında olan saxtakar insanlar var: "Komissiya bu istəkdə olanlara qarşı barışmaz mövqe tutmalıdır. Min bir yolla alim adı almaq istəyən adamlar başa düşməlidir ki, ya əsl alim olmalıdır, yaxud da alim olmaq iddiasından əl çəkməlidir".

Təhsil üzrə ekspert Kamran Əsədov isə bildirib ki, 8 nəfərə imtina verilməsi elmi dərəcə və vəzifə sahiblərinin keyfiyyətinin artırılması üçün atılmış əhəmiyyətli addım hesab edilir. Onun sözlərinə görə, imtinaların səbəbləri arasında təqdim olunan elmi işlərin yenilik və tədqiqat dəyərindən uzaq olması, bəzi işlərin təkrarlanması və beynəlxalq standartlara cavab verməməsi əsas yer tutur. Sitat: "Azərbaycanda elmin mövcud vəziyyəti və dərəcə sahiblərinin keyfiyyət standartlarına cavab verə bilməməsi elmi mühitdə saxta alimlərin azalması üçün mükafatlandırma proqramları kimi yeni tədbirlərin tətbiqinə səbəb olub. Bu tədbirlər elmi işlərin keyfiyyətini artırmağa yönəlib və alimlərin dərəcə qazanmaq üçün daha ciddi elmi tələblərə uyğun olmalarını təmin edir. Bəzi beynəlxalq təcrübələrə baxdıqda görürük ki, Qərb universitetlərində ciddi "peer-review" (rəy verilməsi - red.) prosesi tətbiq olunur, bu da orijinal və keyfiyyətli tədqiqatların meydana çıxmasını təmin edir. ABŞ, Avropa və Avstraliya kimi ölkələrdə elmi işlər ciddi nəzarət mexanizmlərindən keçir ki, bu da saxta alimlərin sayını əhəmiyyətli dərəcədə azaldır".

Bəs Azərbaycanda saxta yolla elmi dərəcə almaq istəyənlər kimlərdir? Bəzi iddialara görə belələri arasında müəyyən vəzifəli şəxslər və biznesmenlər, yaxud onların ailə üzvləri, yaxınları mühüm yer tutur. Hələ ötən il elm və təhsil naziri Emin Əmrullayev Azərbaycanda plagiatlığa qarşı mübarizənin gücləndirilməsinin tərəfdarı olduğunu bildirmiş, elmi ad üçün saxtakarlığa əl atanların fəaliyyətinin ömürlük qadağan olunmasını təklif etmişdi. "Hesab edirəm ki, əqli mülkiyyətlə bağlı yuxarı yaş təbəqələri üçün cəza tədbirləri ağırlaşdırılmalıdır. Mən hesab edirəm ki, plagiatı sübut edilmiş adamın elmi fəaliyyəti ömürlük qadağan olunmalıdır. Bunun başqa yolu yoxdur", - o deyib.

Nazirin çıxışı sosial şəbəkələrdə maraqlı müzakirələrə yol açmışdı. Sosial şəbəkə paylaşımlarında iddia olunur ki, plagiata əl atanlar arasında elm xadimləri ilə yanaşı, bəzi nazir və deputatlar da var. Belə ki, adları açıqlanmayan bir sıra məmurların, hətta deputat və iş adamlarının dissertasiyalarının, habelə müəllifləri olduqları kitabların başqaları tərəfindən yazıldığı deyilirdi.

İllər öncə isə Prezident Administrasiyasının o vaxtkı rəhbəri Ramiz Mehdiyev belə, ölkədə "dissertasiya bazarı"nın mövcudluğundan və bu "bazar" bağlamağın zəruriliyindən danışmışdı. Sitat: "ELM bir BİZNESƏ ÇEVRİLİB və istənilən şəxs - dövlət məmuru, yaxud iş adamı müxtəlif yollarla elmi ad almağa nail olur.Təəssüf ki, bütün bu proseslərdə elm və təhsil müəssisələrinin bir sıra əməkdaşları hazır dissertasiyaları iddiaçılara təklif edirlər. Paradoksal haldır ki, elmin paklığını qorumaq əvəzinə elm xadimlərinin özləri təsadüfi adamların elmi adlar almasına rəvac verir, belə işləri elmi şuralarda yekdilliklə dəstəkləyirlər. Söz yox ki, bu cızma-qaralar Azərbaycanın elmi potensialının artırılmasına heç bir xidmət göstərə bilməz... Müdafiə şuraları səviyyəsiz araşdırmalara, dissertasiyaların müxtəlif yollarla yazılmasına, müdafiəsinə və elmi adların verilməsinə ciddi və tələbkarlıqla yanaşmır, nöqsanlara göz yumur. Müdafiə olunan dissertasiyaların böyük bir qismində sanballı elmi tutum və yeni elmi qənaətlər yoxdur. Belə faktların sayı isə nəinki azalmır, əksinə, artır".

Yerli KİV isə məlum bazarın işləmə prinsipini belə təsvir edir: "Pulum var, imkanım var, niyə bir elmi adım da olmasın?" deyə bəzi məmurlar, biznesmenlər baş vururlar Elmlər Akademiyasına və ya Dissertasiya Şurasının fəaliyyət göstərdiyi ali məktəblərdən, elmi mərkəzlərdən birinə. Orada adını dissertant və ya doktorant kimi qeydiyyata salaraq, formal bir mövzu götürürlər. Yüksək vəzifəlilər "tapşırıqla", qalanları "bazarlıq" nəticəsində razılaşdırılan məbləği verməklə, heç bir elmi əhəmiyyəti olmayan dissertasiya işi yazdırırlar. Nə seminarlara çıxırlar, nə də müzakirələrə. Adlarından bir-iki məqalə də çap etdirib, alimlik dərəcəsini alırlar. Bütün bu prosesi də qısa müddətdə yekunlaşdırırlar. Həqiqi elm adamları 2-3 ilə mövzusunun adını belə təsdiqlədə bilmədiyi halda, saxta və ya "imkanlı" alimlər 3-4 ilə hətta professor titulunu əldə edə bilirlər.

Lakin Prezident yanında Ali Attestasiya Komissiyası tərəfindən cari ilin birinci yarısında 98 nəfərə fəlsəfə doktoru, 8 nəfərə isə elmlər doktoru elmi dərəcəsi verilməsindən imtina edilməsi illərdir haqqında danışılan "dissertasiya bazarı"nın artıq bağlanmağa başlandığından xəbər verir və Azərbaycanda həqiqi elmin gələcəyinə, əsl alimlərin çoxalacağına ümidləri artırır.

***Toğrul Əliyev***

# Rusiyada biznesi olan məmurlarımız qorxu içində

## Yaqub Eyyubovdan Oqtay Əsədova, Əbülfəs Qarayevdən Nazim İbrahimovadək çox sayda indiki və sabiq vəzifəlini təlaşlandıran nədir?

***Rusiya milyarderləri yaxın illərdə ölkə iqtisadiyyatının sürətlə inkişaf edəcəyi barədə hökumətin proqnozlarına şübhə ilə yanaşır. Bu barədə "Bloomberg" nəşri adının çəkilməsini istəməyən bir neçə rusiyalı milyarderə istinadən məlumat yayıb.***

Nəşrin yazdığına görə, milyarderlər Ukrayna müharibəsindən dolayı Rusiyaya tətbiq edilən sanksiyalar iqtisadiyyatın inkişafını əngəlləyir.

Milyarderlər sanksiyaların Rusiyanı müharibəni dayandırmağa məcbur edəcəyinə inanmırlar. Digər tərəfdən, onların fikrincə, müharibə dayansa belə, sanksiyaların aradan qaldırılacağı inandırıcı görünmür.



"Bloomberg"in həmsöhbəti deyib ki, Ukrayna ilə müharibə başlayandan bəri ölkə iqtisadiyyatında əhəmiyyətli dəyişiklik baş verib və bu, Kremlin hədəfələrini əlçatmaz edib.

Milyarderlər bildirib ki, xarici şirkətlərin ölkəni tərk etməsi, istehsal gücünün əhəmiyyətli dərəcədə zəifləib. Bundan başqa, hərbi əməliyyatlara daha çox əsgər cəlb edilməsinə zərurətin yaranması işçi qüvvəsinin azalmasını şərtləndirib. Müharibədən dolayı hərbi-sənaye kompleksinin ehtiyaclarını artırıb. Bu isə hərbi iqtisadiyyatın önə çıxmasına səbəb olub. Başqa bir problem də idxalın əvəzlənməsi prosesinin ləng getməsi ilə bağlıdır.

Beləliklə, rusiyalı milyarderlərin qənaətinə görə, hökumətin iqtisadiyyatın inkişafı barədə proqnozlarını kifayət qədər optimist yanaşma adlandırıb.

"Bloomberg" qeyd edib ki, söhbətləşdiyi milyarderlər bir neçə yüz min işçisi olan və Rusiya iqtisadiyyatına təsir edə bilən şirkətlərin sahibləridir (Qaynarinfo).

Əslində rusiyalı milyarderlərin məlum narahatlığını bəzi azərbaycanlı indiki və sabiq məmurların da yaşadığını düşünmək olar. Söhbət Rusiyada biznesi olanlardan gedir. Onların da ciddi sanksiyalarla üzləşən bir ölkəyə yatırdıqları sərmayələrin gələcəyi ilə bağlı həyəcanlanmamaları, əndişələnməmələri mümkünsüz görünür. Biz hazırkı və keçmiş vəzifəlilərin istər ölkə daxilində, istərsə də ölkə kənarındakı biznesinin əsasən korrupsiya pulları hesabına qurulduğunu bir kənara qoyub mövzuya məhz Rusiyanın iqtisadi inkişafını təhdid altında saxlayan sanksiyalar pəncərəsindən yanaşacağıq.

Qeyd edək ki, Prezident Administrasiyasının sabiq şöbə müdiri Əli Həsənovun, keçmiş əmək və əhalinin sosial müdafiəsi naziri Əli Nağıyevin, sabiq mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin, baş nazirin müavini Yaqub Eyyubovun, sabiq millət vəkili Əsabil Qasımovun, Milli Məclisin keçmiş sədri Oqtay Əsədovun, sabiq diaspora "şefi" Nazim İbrahimovun və başqalarının Rusiyada biznesləri var. Bu barədə yerli mediada zaman-zaman məlumatlar yayılıb və adları çəkilən şəxslər tərəfindən nə təsdiq, nə də təkzib edilib.

Digər tərəfdən, həmin indiki və keçmiş vəzifəlilərin Rusiya-Ukrayna savaşı başlamasının ardından başlayan narahatlıqları getdikcə güclənməkdədir. Moskvanın sanksiyalara məruz qalması isə həmin narahatlıqları şübhəsiz ki, daha da dərinləşdirib. Hələ 2022-ci ildə məlum olmuşdu ki, Rusiyada kiçik sahibkarlıq subyektlərinin təxminən 20%-i böhran və sanksiyalar fonunda işçilərini ixtisar edib və ya işdən çıxarıb. Bu barədə məlumatı "Forbes" jurnalı yaymışdı. Belə ki, jurnalın sifarişi əsasında "Aktion Buxqalteriya" şirkəti sorğu keçirmiş, nəticədə şirkətlərin 13,7 faizində gəlirlərin 50 faizdən çox azaldığı, müəssisələrin 3,5 faizinin isə işlərini tamamilə dayandırdığı açıqlanmışdı. "Rusiya ordusunun Ukraynaya hücumundan sonra hər 5 Rusiya şirkətindən 1-i işçilərini ixtisar edib və ya işdən çıxarıb. Şirkətlərin təxminən 11%-i işçilərin 10%-dən azını, şirkətlərin 6,3%-i işçilərinin 10%-dən 30%-nə qədərini, 2,8%-i 50%-dən 100%-ə qədərini işdən çıxarıb və ya ixtisar edib. Respondentlərin üçdə birindən çoxu (37,5%) son bir ayda gəlirlərini və müştərilərini, 19%-i isə təchizatçılarını itirdiyini bildirib. Sorğuda iştirak edən şirkətlərin 31,2%-nin gəlirləri fevralın sonundan bir qədər azalıb. Təxminən 29%-i gəlirlərinin 25-50% azaldığını bildirib. Şirkətlərin 13,7%-nin gəliri 50%-dən çox azalıb. Sorğuda iştirak edənlərin 3,5%-i işlərini tamamilə dayandırdıqlarını deyib" - həmin vaxt vurğulanırdı.

Aradan keçən iki ildə bu rəqəmlərin hansı istiqamətdə dəyişdiyinə dair isə onu deyək ki, bu ilin yayında açıqlanan statistikaya görə, Rusiya şirkətlərinin ümumi gəlirləri 2023-cü ildə 36% azalaraq 814 trilyon rubl təşkil edib. Bu barədə iyulda "İzvestiya" Federal Vergi Xidmətinin (FTS) analitik portalına istinadən yazmışdı. Qeyd edilib ki, üstəlik, Ukraynaya qarşı müharibənin birinci ilində bu rəqəm ilk dəfə olaraq bir katrilyonu keçərək 1267 trilyon rubl təşkil edib.

"Keçən il şirkətlərin gəlirlərinin azalması xarici sanksiyalarla bağlıdır: şirkətlər logistika və istehsal proseslərini yenidən qurmalıdırlar" - deyə "Texzor" Şirkətlər Qrupunun baş direktoru Andrey Borodkin izah edib.

Rusiya İqtisad Universitetinin Dövlət və Bələdiyyə Maliyyəsi kafedrasının dosenti Ravil Axmadeev isə bildirib: "Biznes və dost ölkələr arasında iqtisadi əlaqələrin infrastrukturu kifayət qədər inkişaf etmədiyi üçün bu, keçən il yeni ticarət və maliyyə əlaqələrinin qurulmasını tələb etdi".

Eyni zamanda vurğulamaq yerinə düşər ki, həm savaşın uzanması, həm də sanksiyaların genişlənməsi fonunda vəziyyətin qarşıdakı dövrdə daha da çətinləşəcəyini düşünmək mümkündür. Belədə isə Rusiyada biznes yaratmış indiki və sabiq məmurlarımızın təlaşı da, şübhəsiz ki, artacaq...

*Sənan Mirzə*

# TDT ölkələrinin ekologiya nazirləri bir araya gəldi




***Bu günlərdə Azərbaycanın paytaxtında keçirilən COP29 iqlim forumu beynəlxalq əhəmiyyətli tədbirlərlə zəngindir. Belə ki, noyabrın 14-də belə formatda ilk olan Özbəkistan Respublikasının pavilyonunda Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin ekologiya və ətraf mühit nazirlərinin görüşü baş tutub.***

"Unikal" xəbər verir ki, görüşdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistanın müvafiq nazirliklərinin rəhbərləri və TDT-nin Baş katibi iştirak ediblər. İştirakçılar təşkilata üzv dövlətlərin ekologiya nazirlərinin Bəyannaməsini imzalayıbla. Daha sonra çıxışlar edilib.

Nazirlər və TDT-nin Baş katibi BMT-nin hazırkı iqlim gündəliyinə tam dəstəyini ifadə ediblər və COP29-un ilk günlərində qeyd olunan məqsədlərə əməl olunmasına dair öhdəliklərini təsdiqləyiblər.

# Baş prokuror Əsəd Məcid Xanla görüşdü

***BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək məqsədilə ölkəmizə səfərə gələn beynəlxalq təşkilat və xarici dövlətlərin nümayəndə heyətləri ilə silsilə görüşlər keçirilir.***

"Unikal" xəbər verir ki, noyabrın 14-də Baş prokuror Kamran Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi - Əsəd Məcid Xanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olduğunu bildirib.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən noyabrın 15-də keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyası barədə danışan tərəflər mütəşəkkil cinayətkarlığın, o cümlədən qanunsuz fəaliyyətlərin iqlim dəyişikliyinə səbəb olması və ətraf mühitə dağıdıcı təsirləri barədə danışıb.

İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəmizdə keçirilən ən böyük iqlim konfrans COP29-un Azərbaycanın sədrliyi ilə uğurla davam etdiyini vurğulayıb.

İqtisadi Əməkdaşlıq Təşkilatının iqlim fəaliyyəti və davamlı inkişafa böyük önəm verdiyini qeyd edən Əsəd Məcid Xan Azərbaycanın regional və qlobal miqyasda iqlim problemlərinin həllində mühüm rola malik olduğunu bildirərək birgə əməkdaşlığın əhəmiyyətindən bəhs edib.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

# Azərbaycanda əmək müqavilələrinin sayı açıqlandı

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin iş yerlərinin rəsmiləşdirilməsi, əməkhaqqı fondunun "ağardılması" və şəffaflılığın təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin nəticəsi olaraq, bağlanmış əmək müqavilələrinin sayı 2019-cu ilin əvvəli ilə müqayisədə 469 802 vahid artıb və bu il oktyabrın 1-nə 1 871 717 olub.***

"Unikal" xəbər verir ki, qeyri-neft sektorunun özəl bölməsində həmin göstərici 445 682 vahid artaraq 985 604 təşkil edib.

40_27 IYUI-QARA.qxd 11/14/2024 10:02 PM Page 11



# COP29 Azərbaycan tarixində böyük hadisədir - Metyu Brayza



***Azərbaycanda keçirilən COP29 hamımız üçün inanılmaz dərəcədə həyəcanlıdır. Təkcə bu regionda iqlimlə bağlı ən böyük hadisə deyil. Bu, bütün dünyada, xüsusən Azərbaycan tarixində ən böyük hadisədir. Bu, məni çox sevindirir. Azərbaycanın əslində nə olduğunu göstərmək şansı var.***

"Unikal" xəbər verir ki, bu barədə AZƏRTAC-a müsahibəsində COP29-da Yaşıl Zonadakı sərgi pavilyonunda Ceymstaun Fondunun İdarə Heyətinin üzvü, ABŞ-ın Azərbaycandakı sabiq səfiri, beynəlxalq ekspert Metyu Brayza deyib.

"Azərbaycan azad edilmiş ərazilərin bərpası, həm də ölkənin iqtisadi gələcəyi ilə yanaşı, dünyanın iqlim dəyişikliyi məqsədlərinə çatmasına kömək etmək üçün beynəlxalq danışıqlara rəhbərlik edir. Beləliklə, bu, Azərbaycan üçün həyəcanverici andır və mən burada və COP29-da aşkar olunan fərqli bir dövlətin bir hissəsi olmaqdan şərəf duyuram.

COP29-un sədri kimi Azərbaycanın əsas məqsədi maliyyə müzakirəsidir. Beləliklə, ideya ondan ibarətdir ki, uzun illərdir dünyanın inkişaf etmiş ölkələri inkişaf etməkdə olan ölkələrinə iqlim dəyişikliyinə uyğunlaşmalarına kömək etmək üçün ildə 100 milyard dollar ayırmağa söz versələr də, nəticə uğursuzdur.

Biz heç vaxt iqlim dəyişikliyi prosesinə hazırkı qədər ciddi yanaşmamışıq. Ona görə də indi bizə ildə bir trilyon dollardan çox pul lazımdır. Bu, ölkələrə keçidi həyata keçirməyə kömək edəcək. Beləliklə, inkişaf etməkdə olan ölkələrə nəticələrin idarə olunmasına kömək etmək üçün razılaşdırılmış töhfələr olacaq. COP29-da ölkələrin enerji məsələlərini diqqətdə saxlamaq və bərpaolunan enerji istehsalını artırmaq niyyətlərinin müzakirə olunacağını düşünürəm. Bütün qlobal iqtisadiyyatın bərpaolunan enerjidən istifadə edə bilməsi ən vacib şərtdir. Yəni bunlar çox vacib məqsədlərdir. Hesab edirəm ki, Azərbaycanı hələ də təbii qaz ixrac etmək istəməsinə görə tənqid etmək real deyil, çünki Azərbaycan elektrik enerjisi ixrac edir. Ölkənizin işğaldan azad olunmuş ərazilərinin yaşıl enerji zonalarını yenidən qurmaq üçün bərpaolunan enerjiyə etibar etməsi uğurlu addımdır. Ən yaxşısı onları təmiz və yaşıl saxlamaqdır", - deyə Metyu Brayza əlavə edib.

# Samuxda əsas kapitala yönəldilmiş investisiya 15,8 dəfə artmışdır




***Rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün növ maliyyə mənbələrindən əsas kapitala 23172,5 min manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 15,8 dəfə çox vəsait yönəldilmişdir. Ümumi sərmayə məbləğinin 96,0 faizi dövlət, 4,0 faizi isə qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən yönəldilmişdir.***

Əsas kapitala yönəldilmiş ümumi vəsaitin 96,1 faizi sənaye, 3,9 faizi isə sosial sahələrə sərf edilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitin 22280,0 min manatı və ya 96,1 faizi istehsal təyinatlı, 892,5 min manatı və ya 3,9 faizi isə qeyri-istehsal təyinatlı olmuşdur.

Əhalinin şəxsi vəsaiti hesabına dəyəri 892,5 min manat və ümumi sahəsi 1824,0 kvadrat metr olan 16 mənzil tikilib istifadəyə verilmişdir.

Tikinti-quraşdırma işlərinin həcmi 46,1 dəfə artaraq 23088,8 min manat olmuşdur.

***Samux Rayon Statistika İdarəsi***

# Keçmiş biznesmen-deputatın ağlasığmaz sonu

## Sabiqlərin izi ilə: Dünyamin Xəlilovu böyük pullardan, çox sayda şirkətdən, millət vəkili mandatından həbsə sürükləyən nə oldu?

***"Unikal" qəzeti keçmiş məmurların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz sabiq deputat Dünyamin Xəlilov haqqındadır.***

2005-ci ildə Milli Məclisin üzvü seçilən, beləcə parlamentin III çağırış deputatı olan 53 yaşlı Dünyamin Xəlilov Tiflisdə anadna olsa da, Azərbaycan Neft və Kimya İnstitutunun elektromexanika fakültəsini və Azərbaycan Universitetinin hüquq fakültəsini bitirib. 1984-cü ildən "Xəzərdənizneftqazsənaye" Ümumittifaq Sənaye Birliyində mühəndis, mühəndis-sazlayıcı, "Şelfqazavtomatika" İdarəsində mühəndis-sazlayıcı, mühəndis-dispetçer, 1991-ci ildən "İntexsentr" mərkəzində şöbə rəisi, Azərbaycan Kinematoqrafçılar İttifaqının "Damla" təşkilatında sərəncamçı menecer, direktor müavini işləyən Xəlilov 1992-ci ildən isə Azərbaycan Respublikasının Xarici İqtisadi Əlaqələr Nazirliyinin "Vneşekspertservis" şirkətində şöbə rəisi, direktor müavini postlarını tutub.



O, 1994-cü ildən "Avant" Məhdud Məsuliyyətli Cəmiyyətinin meneceri, 1997-ci ildən "Nurimpeks" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru, 1998-ci ildən "Vneşekspertservis" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş meneceri vəzifələrində çalışıb.

2004-2005-ci illərdə "General Construction" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru olan Xəlilov Bakıdakı məşhur "Globus Plaza"nın sahibi kimi də tanınırdı. 2005-ci ildə Azərbaycan Beynəlxalq Bankının səhmdarı na çevrilib, bir müddət "Şəki Bazarı" və "Şəki Ət Kombinatı" ASC-ni idarə edib.

Bir sözlə, Dünyamin müəllim biznesmen-deputatlardan idi, qısa vaxtda böyük sərvətə yiyələnmişdi. Cəmi bir çağırış Milli Məclisin üzvü olan eks millət vəkilinin 2010-cu ildə hansı səbəblə yenidən parlament üzvü seçilmədiyi bəlli deyil. Lakin bu dəqiqdir ki, Beynəlxalq Bankın hazırda həbsdə olan keçmiş rəhbəri Cahangir Hacıyev tutulunca, Xəlilovun da qara günləri başladı.

Belə kii, 2015-ci ilin yayından Beynəlxalq Banka kredit borcları olan şəxslərin həbsinə start verildi. Bu məsələ ilə bağlı bir çox iş adamı və digərləri saxlanıldı. Onların arasında D.Xəlilov da vardı. Sabiq deputat və daha bir neçə nəfər ümumilikdə 50 milyon manat mənimsəmədə təqsirli bilinirdilər. Həmin şəxslər 2016-cı ilin fevralında Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının həyata keçirdiyi əməliyyat zamanı saxlanılmışdılar. Daha sonra Nərimanov Rayon Məhkəməsinin qərarı ilə D.Xəlilov barəsində həbs qətimkan tədbiri seçildi. O və digər iki nəfər Cinayət Məcəlləsini 179.3.1-ci (mənimsəmə, mütəşəkkil dəstə tərəfindən törədildikdə), 179.3.2-ci (mənimsəmə, külli miqdarda törəldildikdə),213.2.1-ci (vergi ödəməkdən yayınma, mütəşəkkil dəstə tərəfindən törədildikdə), 213.2.2-ci (vergi ödəməkdən yayınma, külli miqdarda törədildikdə) 32.4,308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ilə ələ alma) və 32.4,309.2-ci (vəzifə səlahiyyətlərini aşma ilə ələ alma) maddələri ilə ittiham olunurdular. İttiham aktında o da göstərilib ki, Dünyamin Xəlilov, Şakir Musayev və Seyfulla Seyfullayevin epizodları üzrə 36 nəfər fiziki şəxsə "Azərbaycan Beynəlxalq Bank" ASC-dən kredit verilib. Bank həmin kreditin - 3 milyon 359 min 399 manat məbləğində faiz borclarını tələb edirdi.

Bundan başqa, cinayət işində qeyd edilib ki, Dünyamin Xəlilov və digərləri "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatına 85 milyon 355 min 786 manat məbləğində ziyan vurublar. Həmin təşkilat dəymiş ziyanın ödənilməsi üçün mülki iddia qaldırıb.

Daha bir maraqlı detal: ittiham aktına əsasən, təqsirləndirilən şəxslərdən yalnız sabiq deputat D.Xəlilov vergi ödəməkdən yayınıb. Belə ki, onun 1 milyon 752 min 359 manat pulu dövlət büdcəsinə ödəmədiyi göstərilib. Müvafiq qaydada qaldırılan mülki iddiaya görə, Xəlilovun həmin pulu dövlət büdcəsinə ödəməsi tələb olunurdu.

Beləliklə, zərərçəkmiş qismində tanınan iki bank və bir dövlət qurumu tərəfindən sabiq deputata və onunla birgə daha bir neçə nəfərə ümumilikdə 90 milyon 467 min 544 manat mülki iddia qaldırılmışdı.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Dünyamin Xəlilov 14 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Bu ilin yanvarında isə sabiq deputata yeni hökm oxunub. Cinayət Məcəlləsinin 66.5-ci maddəsinə əsasən Xəlilov barəsində indiyə qədər çıxarılan hökmlər qismən toplanılmaqla qəti olaraq 14 il 9 ay müddətinə azadlıqdan məhrum olunub.

Beləliklə, cəmi 15 il öncəyədək sərvəti ilə göz qamaşdıran, millət vəkili mandatını belə almağı bacaran sabiq biznesmen-deputat, bəlkə, yuxusunda görsə inanmayacağı acı aqibətlə üzləşib. Bəzi iddialara görə, bunda həbsdəki sabiq bankir C.Hacıyevin həlledici rolu var. Xəlilov məhz onun himayəsindəki biznesin idarəçisi olaraq ön plana çıxıb, nəticədə Hacıyev ölkənin aparıcı banklarından birini qanunsuz əməlləri ilə iflas həddinə gətirib çıxardığı üçün dəmir barmaqlıqlar ardına atılınca eyni sonluq Dünyamin müəllimdən ötrü də qaçılmaza çevrilib. Məşhur bir məsələ deyildiyi kimi: "Çox tamah - çox günah"...

**5.3.6. Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə,**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# COP29 Azərbaycanın dünyaya inteqrasiyasını daha da sürətləndirəcək

## Millət vəkili Azər Allahverənov: "Azərbaycan belə mötəbər tədbirə ev sahibliyi edir, bu da ölkəmizə dünyaya çox ciddi mesajlar vermək fürsəti yaradır"



***Artıq bir neçə gündür ki, Azərbaycan mötəbər tədbirə ev sahibliyi edir. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı çərçivəsində (COP29) Azərbaycana dünyanın müxtəlif ölkələrindən 60 mindən çox qonaq gəlib.***

200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək fürsətinin verilməsi ölkəmizin beynəlxalq arenada rolunun böyük olduğundan xəbər verir. Azərbaycan mühüm qlobal konfransa ev sahibliyi etməklə beynəlxalq nüfuzunu daha da möhkəmləndirir, ölkəmizin qlobal problemlərin həllində məsuliyyətli və etibarlı tərəfdaş olduğunu nümayiş etdirir. COP29-da iştirak edən qonaqlar da, Azərbaycanın iqlim dəyişikliklərinin ətraf mühitə təsirinə həssaslıq nümayiş etdirməsini alqışlayır, ekoloji dayanıqlılığa verdiyi bu töhvəni yüksək qiymətləndirir. Beynəlxalq iqlim konfransının keçirildiyi arenaya toplaşan qonaqların simasından da tədbirin yüksək səviyyədə təşkili ilə bağlı razılıq əlaməti hiss olunurdu. Bu tədbirlə, Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyinin öhdəsindən layiqincə gəldiyini bütün dünyaya nümayiş etdirməkdə davam edir. Artıq dördüncü gündür ki, keçirilən iqlim konfransına dünyanın nüfuzlu ölkələrinin dövlət başçıları, nazirlər, dövlət rəsmiləri qatılır. Tədbirə çoxlu sayda dövlət və hökumət nümayəndələrinin qatılması Azərbaycanın regional və beynəlxalq əhəmiyyətini daha da artırır, xarici dövlətlərlə ikitərəfli əməkdaşlığa zəmin yaradır.

Millət vəkili Azər Allahverənov "Unikal" qəzetinə açıqlamasında COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyətindən danışıb. Deputat bildirib ki, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı dövlətimiz üçün böyük əhəmiyyət daşıyan bir tədbirdir. "Bu iqlim sahəsində keçirilən ən böyük tədbirdir. Bu tədbir mötəbərliyinə görə BMT-nin statusunu alıb. Azərbaycan da belə mötəbər tədbirə ev sahibliyi edir. Bu da ölkəmizə dünyaya çox ciddi mesajlar vermək fürsəti yaradır. Bu mesajlar həm də qlobal istiləşməyə qarşı olan mesajlardır. Bununla yanaşı Azərbaycan öz nümunəsini də dünya ictimaiyyətinin diqqətinə çatdırır" deyə deputat bildirib.

Azər Allahverənov onu da əlavə edib ki, Azərbaycan iqlim konfransı vasitəsilə dünyaya göstərdi ki, ölkəmiz neft və qazdan əldə edilən vəsaitləri alternativ enerji hasilatının artırılmasına yönəldir:" Azərbaycan külək, günəş və sudan alternativ enerji əldə edərək qlobal istiləşmənin qarşısının alınmasına böyük töhvə verir".

Qeyd edək ki, noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə çıxış edərək bildirib ki, Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Dövlət başçısı vurğulayıb ki, Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib. Prezident bildirib ki, COP29-a dünyanın 196 ölkəsindən iştirakçılar gəlib və 72 min nəfər qeydiyyatdan keçib. Onların sırasında 80 prezident, vitse-prezident və Baş nazirlər var.

Şərhçilər də bəyan edir ki, COP29 dünya ölkələri ilə yeni əlaqələrin qurulmasında, körpülərin salınmasında əhəmiyyətli rol oynayacaq.

Milli Məclisin deputatı Vüqar Rəhimzadənin fikrincə, Liderlər Sammitindəki çıxışlarda səsləndirilən fikirlər bir daha Azərbaycanın yaratdığı yeni reallıqlar, müxtəlif sahələrdə zəngin təcrübəsi ilə sivil dünyanın diqqətində olduğunu təsdiqləyir. "Azərbaycanın qlobal çağırışları yüksək səviyyədə cavablandırması, bu problemlərin həlli üçün beynəlxalq həmrəyliyin gücləndirilməsinin zəruriliyini bildirməklə yanaşı, bu məsələlərin reallaşmasına verdiyi davamlı töhfələr beynəlxalq ictimaiyyətin diqqətindən kənarda qalmır" , deyə deputat vurğulayıb. V. Rəhimzadə qeyd edib ki, Azərbaycanın ünvanına səsləndirilən xoş sözlər, ölkəmizlə bağlı təəssüratlar respublikamıza beynəlxalq baxışın nə qədər yüksək səviyyədə olduğunu nümayiş etdirir. Ölkəmizin qlobal problemlərin, o cümlədən iqlim dəyişmələrinin yaratdığı fəsadların aradan qaldırılması istiqamətində göstərdiyi səylər real addımlarda özünün aydın ifadəsini tapır. Deputatın sözlərinə görə, COP29 Azərbaycana böyük iqtisadi və siyasi dividend qazandıracaq. Bu beynəlxalq tədbirdən sonra, Azərbaycanın dünya dövlətləri ilə yeni əlaqələri, yeni körpüləri qurulacaq. Azərbaycan bu əlaqələrin təşəbbüsçüsü və iştirakçısı olaraq beynəlxalq arenada söz sahibliyini daha da artıracaq.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# TikTok COP29-da #ClimateAction kampaniyasını başladır




***TikTok qlobal icması arasında davamlılıq mövzusunda məlumatlılığı artırmaq və iqlim savadlılığını yüksəltmək öhdəliyinə sadiqdir.***

"Unikal" xəbər verir ki, TikTok, həm davam edən öhdəliyin bir hissəsi kimi, həm də Azərbaycanın ev sahibliyi etdiyi COP29 BMT-nin İqlim Dəyişikliyi Konfransı ilə bir vaxtda yeni təşəbbüslər və proqramlar hazırlayıb. Elə bu tədbirlər çərçivəsində də 2024-cü il üçün #ClimateAction kampaniyasını başladıb.

TikTok-un aktiv icması ətraf mühitə müsbət təsir göstərməyə çalışır. İqlim dəyişikliyi haqqında məlumatlandırmaqdan tutmuş davamlı yaşayış vərdişlərini təşviq etməyə qədər, daha yaşıl bir gələcək üçün ortaq məqsədə malik yaradıcılar, icmalar və missiya yönümlü təşkilatlar bir-birini ruhlandırmağa və dəstəkləməyə davam edirlər, kollektiv gücü açaraq real fərq yaratmağa çalışırlar. Platformada #ClimateChange, #ClimateAction və #SustainableLiving kimi heşteqlərin populyarlığı bu mövzuya marağın göstəricisidir və bu heşteqlərlə hazırda müvafiq olaraq 500 min, 170 min və 240 mindən çox paylaşım toplayıb.

COP29 iqlim dəyişikliyinin ön cəbhəsində olan liderləri və icmaları bir araya gətirərkən, TikTok da həmçinin dünyanın dörd bir yanından 5 istedadlı yaradıcını Bakıda, Azərbaycan COP29 Zirvəsində ilhamverici məzmun paylaşmağa dəvət edir. Bu yaradıcılar COP29-da iştirak edəcək və TikTok icmasına dünya üzrə eksklüziv məzmun təqdim edəcəklər.

- Jeremy Owen Wijaya (@Jerhemynemoo) hazırda Ekoloji Texnologiyalar və Bərpa Olunan Enerji üzrə təhsil alan İndoneziyalı yaradıcı və ekoloji müdafiəçidir. Jerhemy izləyicilərini ekoloji dostu vərdişləri öyrətməyə və ətraf mühitə müsbət təsir edən seçimlər etməyə həvəsləndirir.

- Caulin Donaldson (@TrashCaulin) ABŞ-da yerləşən iqlim aktivisti və plastik çirklənməyə qarşı mübarizə aparan yaradıcıdır. Çimərliklərdə tullantı yığma, davamlı həyat tərzi və müsbət dəyişiklik təşviq edən maraqlı videolar vasitəsilə Caulin eko-məlumatlılığı artırır və izləyicilərini daha sağlam bir planet üçün kiçik, lakin təsirli addımlar atmağa təşviq edir.

- Selim Tarım (@Selimtarim on TikTok) Türkiyənin Rize şəhərindən olan və davamlılıq mövzusunda fəal olan bir rəssamdır, Rize-də ətraf mühit məsələləri haqqında məlumatlılığı yaradıcı təşəbbüslərlə artırır. Təbiəti qorumağa sadiq olan Selim, sənəti təbiətlə əlaqələndirmək üçün 432 Hz sağalma musiqiləri yaradır.

- Mariya Verdes (@verdesmarias): Mariya - ətraf mühit və davamlı inkişaf sahəsində təhsil alan braziliyalı jurnalist və iqlim sahəsində fikir lideridir. O, planetin davamlı inkişafına töhfə vermək üçün hər kəsin ata biləcəyi kiçik addımları fəal şəkildə təbliğ edir. 2022-ci ildə Mariya Braziliyanın Zero Waste Institute tərəfindən təqdim edilən Zero Waste Mükafatının qalibi olub.

- Tiago Kastano (@othiagocastanho): Tiago - Braziliyanın Para şəhərindən olan məşhur aşpazdır və işində yenilikçi yanaşmaları tətbiq edir. Öz köklərindən ilham alaraq, Tiago Amazon mətbəxinə və yerli mədəniyyətə yeni nəfəs verməyə çalışır. O, 2020-ci ildə Amazon meşələri və çayları arasında immersiv təcrübə təqdim edən "Sabores da Floresta" ("Meşənin dadları") adlı sənədli serialı təqdim etmişdi.

COP29 zamanı TikTok, UNEP-dən Rachel Arthur, Futerra-nın qrup CEO-su Lucy Shea, Neil deGrasse Tyson və TikTok-un Davamlılıq Bölməsi rəhbəri Ian Gill kimi ekspertlərin iştirakı ilə vebinarlar təşkil edəcək, davamlı moda və şüurlu yaşam tərzi kimi mövzuları əhatə edən müzakirələrə yaradıcılar icmasını dəvət edəcək.

TikTok-un iqlim dəyişikliyi ilə bağlı səlahiyyətli məlumatları artırmaq və iqlim savadlılığını yüksəltmək üçün davam edən səylərinin bir hissəsi olaraq, COP29 ərzində TikTok Azərbaycan da daxil olmaqla, seçilmiş qlobal bazarlarda iqlim məzmununda video etiketləri əlavə edəcək və COP29 məzmunu axtaran istifadəçiləri etibarlı mənbələrə, məsələn, Azərbaycanın rəsmi COP29 veb saytına yönləndirəcək.

40_27 IYUI-QARA.qxd 11/14/2024 10:02 PM Page 13



# D vitamininin əhəmiyyəti

***D vitamini yağda həll olunan vitamindir və sümük sağlamlığı üçün vacib olan kalsium, maqnezium və fosfatın orqanizmə sorulmasına kömək edir. Vitamin D əzələ hərəkəti, sinir funksiyaları və immunitet sistemi üçün də olduqca vacibdir. D vitamini çatışmazlığı geniş yayılmış bir problemdir. Dünyada təxminən 1 milyard insan D vitamini çatışmazlığından əziyyət çəkir.***

"Unikal" D vitamininin faydalarını və çatışmazlığının səbəb ola biləcəyi zərərləri təqdim edir:

**D vitamini orqanizm üçün niyə əhəmiyyətlidir?**

**Sümük sağlamlığı:** D vitamini bədənimizdə sümüklərin güclənməsində vacib komponent olan kalsiumu mənimsəməsinə kömək edir. D vitamini və kalsium sümükləri zəiflədən və onların qırılma ehtimalını artıran osteoporozun qarşısını almaq üçün birlikdə işləyir. Buna görə D vitamini, eyni zamanda "günəş vitamini"də adlanır.

**Əzələ və sinir funksiyası:** Vitamin D əzələlərin hərəkət etməsinə kömək edir və sinirlərin beyin və bədən arasında mesajlar daşımasına yardımçı olur.

**İmmunitet sistemi:** Vitamin D immun sisteminin virus və bakteriyalarla mübarizə aparmasına kömək edir.

**Beyin sağlamlığı:** D vitamini qocalmış beynin sağlamlığında mühüm rol oynaya bilər.

**İltihab və ağrı:** Vitamin D bədənin iltihab və ağrıya necə reaksiya verdiyinə təsir göstərir.

**Qan təzyiqi:** D vitamini çatışmazlığı hipertoniya və ya yüksək qan təzyiqi ilə əlaqələndirilir. Vitamin D3 hipertoniya və D vitamini çatışmazlığı olan insanlarda qan təzyiqini aşağı salmağa kömək edir.

**D vitamininin əsas mənbələri**

**Günəş işığı:** Bədən günəş işığına məruz qaldıqda təbii olaraq D vitamini istehsal edə bilir. Bununla belə, istehsal olunan D vitamini miqdarı dərinin rəngi, günün vaxtı və bulud örtüyü kimi bir sıra amillərdən asılıdır. Həddindən artıq günəşə məruz qalma dəri xərçənginə də səbəb ola bilər, buna görə də günəşdən qoruyucu vasitələrdən istifadə etmədən günəşdə bir neçə dəqiqədən çox vaxt keçirmək tövsiyə edilmir.

**Pəhriz:** D vitamini olan bəzi qidalara, D vitamininin ən yaxşı mənbələri arasında olan qızılbalıq və ya yüngül konservləşdirilmiş ton balığı və skumbriya kimi balıqlar daxildir. Günəş şüalarına məruz qaldıqda göbələklər çox miqdarda D vitamini ehtiva edə bilər. Yumurta sarısı təxminən 20 IU D vitamini ehtiva edir. Süd, qatıq, taxıl və təxminən 100% meyvə şirələri də D vitamini ilə zəngin məhsullardır.

**Əlavələr:** Günəş kifayət qədər güclü olmadığı payız və qış aylarında insanlar D vitamini əlavələri qəbul etməlidirlər. D vitamini əlavələri sümük sağlamlığı üçün vacib olan kifayət qədər D vitamini aldığınızdan əmin olmaq üçün yaxşı bir yol ola bilər. D vitamini əlavələrinin iki əsas növü vitamin D2 (erqokalsiferol) və vitamin D3 (xolekalsiferol)dır. Ancaq çox miqdarda D vitamini qəbul etmək zərərli ola bilər.

***Zərifə Nağıyeva***

# COP29-da rəqəmsallaşma və nəqliyyat: tematik günlər, təşəbbüslər, gözləntilər

***Artıq dördüncü gündür ki, Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçirilir. İqlim dəyişikliklərinin qarşısının alınması istiqamətində göstərilən səylər, əldə olunan irəliləyişlər dəyərləndirilir, ən yaxşı həll yolları barədə müzakirələr aparılır.***

"Unikal" xəbər verir ki, COP29 çərçivəsində ən yüksəksəviyyəli tədbir - Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammiti noyabrın 12-13-də keçirilib. Bu gündən isə COP29-un tematik günləri başlayıb.

7 tematik gündə maliyyədən təhsilə, kənd təsərrüfatından urbanizasiyaya qədər müxtəlif sahələrin iqlim dəyişikliyi ilə əlaqəli məsələləri müzakirə olunacaq. Təşkil olunan tədbirlər iqlim böhranının aradan qaldırılmasının sürətləndirilməsi üçün təcrübələrin, ideyaların bölüşüldüyü, əməkdaşlıqların qurulduğu və inkişaf etdirildiyi platformalar rolunu oynayacaq.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi məsul olduğu sahələr üzrə təşəbbüslərini 2 tematik gün çərçivəsində təqdim edəcək. Nazirlik ümumilikdə 4 tədbirin həmtəşkilatçısıdır.

**COP tarixində ilk: Rəqəmsallaşma Günü**

16 noyabr COP29-da Elm, Texnologiya və İnnovasiya / Rəqəmsallaşma Günü olacaq. COP tarixində Rəqəmsallaşma Gününün təşkili ilk dəfədir. Bu, rəqəmsal inkişaf yolu seçmiş, müasir innovasiya məkanının formalaşdırılmasını milli prioritet elan etmiş Azərbaycanın - COP29 Sədrliyinin təşəbbüsü ilə proqrama daxil edilib.

Rəqəmsal texnologiyalar iqlim dəyişikliyi ilə mübarizədə vacib rol oynayır. Lakin onun enerji istehlakı və elektron tullantılar kimi mənfi tərəfləri də var.

İlk Rəqəmsallaşma Günü texnologiyaların ətraf mühitə təsirlərini yumşaltmaqla tərəfləri davamlı rəqəmsal transformasiya üçün birgə fəaliyyətə təşviq edəcək.

**Yaşıl Rəqəmsal Fəaliyyət**

Yaşıl Rəqəmsal Fəaliyyət üzrə yüksəksəviyyəli dəyirmi masanı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi COP29 Sədrliyi və Beynəlxalq Telekommunikasiya İttifaqı (ITU) ilə birgə təşkil edəcək.

Tədbirdə rəqəmsal texnologiyaların iqlim fəaliyyətini necə dəyişdirə biləcəyi araşdırılacaq.

Dəyirmi masada rəqəmsal innovasiyaların iqlim strategiyalarına inteqrasiyası, rəqəmsal alətlərdən istifadə etməklə iqlim monitorinqinin və uyğunlaşmanın gücləndirilməsi, rəqəmsallaşmanın ətraf mühitə təsirlərinin aradan qaldırılması məsələləri müzakirə olunacaq.

Eyni zamanda davamlı inkişaf sahəsində uğurlu təşəbbüslərin nümayiş etdirilməsi, rəqəmsal transformasiyanı qlobal iqlim məqsədlərinə uyğunlaşdırmaq üçün gələcək əməkdaşlıq imkanlarının yaradılması barədə fikir mübadiləsi aparılacaq.

Dəyirmi masanın yekununda Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannamə qəbul olunacaq. Bəyannamə iqlim dəyişikliyini nəzərə alaraq rəqəmsallaşmanın sürətləndirilməsi, İKT sektorunda emissiyaların azaldılması və yaşıl rəqəmsal texnologiyalara çıxışın artırılmasını nəzərdə tutur.

Sənəd dövlətlər, sahə üzrə fəaliyyət göstərən təşkilatlar, şirkətlər, assosiasiyalar, vətəndaş cəmiyyəti üzvləri və akademik təsisatlar üçün açıqdır. Maraqlı tərəflər Bəyannaməyə qoşulmaq üçün digitalisation@cop29.az e-poçt ünvanına müraciət edə bilərlər.

**Nəqliyyat Günü**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin həmtəşkilatçısı olduğu digər tədbirlər noyabrın 20-də - Urbanizasiya, Turizm və Nəqliyyat Günü çərçivəsində olacaq.

Həmin gün nəqliyyatın iqlim dəyişikliklərinə təsiri və iqlim fəaliyyətində rolu nəzərdən keçiriləcək.

Dünyada CO2 emissiyalarının 23%-i nəqliyyat sektorunun payına düşür. 1990-cı ildən bəri emissiyaların ən sürətli artım tempi məhz nəqliyyat və sənaye sektorunda müşahidə olunur. Vəziyyət indiki kimi davam edərsə, nəqliyyat sektorunda emissiyaların 2050-ci ilə qədər ikiqat artacağı proqnozlaşdırılır.

Emissiyaların azaldılması ilə yanaşı, nəqliyyat sektorunun yaşıllaşdırılması Dayanıqlı İnkişaf Məqsədlərinin əldə edilməsində vacib rol oynayır.




**Yaşıl şəhər nəqliyyatı**

Urbanizasiya, Turizm və Nəqliyyat Günü çərçivəsində keçirilən tədbirlərdən biri "Yaşıl şəhər nəqliyyatı" mövzusunda nazirlərin dəyirmi masası olacaq.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu tədbiri Beynəlxalq Nəqliyyat Forumu (ITF) və BMT-nin aparıcı təsisatı olan Məskunlaşma Proqramı (UN-Habitat) ilə birgə təşkil edəcək.

Tədbir şəhər nəqliyyatının yaşıllaşdırılması mövzusunun dərindən araşdırılması məqsədi daşıyır.

Dəyirmi masada dayanıqlı şəhər nəqliyyat sisteminin milli, regional və şəhər planlaşdırma strukturlarına inteqrasiyası ilə bağlı strategiyaların hazırlanması gözlənilir.

Tədbir şəhər nəqliyyatının dekarbonizasiyasını sürətləndirmək üçün hökumətlər və maraqlı tərəfləri daha sıx əməkdaşlığa təşviq edəcək.

Dayanıqlı şəhər nəqliyyat sistemlərinin təmin edilməsi üçün şəhərlərin kompakt və çox məqsədli inkişafı, eyni zamanda ictimai nəqliyyatın elektrikləşdirilməsi, elektrik mühərrikli avtobusların istismarı, metro və ya tramvay xidmətlərinin genişləndirilməsi tələb olunur. Təhlükəsiz piyada yolu və velosiped marşrutları, elektrik mühərrikli avtobuslar üçün enerjidoldurma infrastrukturu və xüsusi zolaqların yaradılması vasitəsilə dayanıqlı, aşağı karbonlu infrastrukturun tətbiqi bu istiqamətdə fəaliyyətin mərkəzində dayanır.

**Dayanıqlı, rəqəmsal Orta Dəhliz və onun hüdudlarından kənar**

Urbanizasiya, Turizm və Nəqliyyat Günü çərçivəsində "Dayanıqlı, rəqəmsal Orta Dəhliz və onun hüdudlarından kənar" mövzusunda nazirlərin dəyirmi masası keçiriləcək.

Tədbirin təşkilatçıları Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, BMT-nin Avropa üzrə İqtisadi Komissiyası (UNECE), həmçinin Asiya və Sakit Okean ölkələri üçün İqtisadi və Sosial Komissiyasıdır (ESCAP).

Dəyirmi masada Orta Dəhliz və qlobal miqyaslı digər dəhlizlərdə davamlılıq və rəqəmsallaşmanın təşviqi ilə bağlı son nailiyyətlər, eləcə də qarşıdakı təşəbbüslər müzakirə olunacaq.

Tədbirdə region və onun hüdudlarından kənar ölkələrin nazirləri, qurum rəhbərləri iştirak edəcəklər.

Dəyirmi masada yaşıl, dayanıqlı nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı uğurlu təcrübələr, enerji səmərəliliyinin artırılması və əməliyyat əlaqəsinin yaxşılaşdırılması üçün rəqəmsallaşmadan, intellektual nəqliyyat sistemlərindən istifadə örnəkləri müzakirə olunacaq. Həmçinin innovativ texnologiyaların yükdaşımalarda karbon qazı emissiyasının azaldılmasında rolu, dayanıqlı nəqliyyat əlaqələrinin təmin edilməsində avtomatlaşdırma və süni zəkanın potensial rolu barədə fikir mübadiləsi aparılacaq.

Tədbirin sonunda regionda dayanıqlı inkişaf və rəqəmsal transformasiya ilə bağlı irəliləyişə nail olmaq üçün kollektiv öhdəliyi əks etdirən kommunike qəbul olunması nəzərdə tutulur.

**Beynəlxalq aviasiya və iqlim dəyişikliyi**

Noyabrın 20-də Urbanizasiya, Nəqliyyat və Turizm Günü çərçivəsində "Beynəlxalq aviasiya və iqlim dəyişikliyi" mövzusunda yüksəksəviyyəli panel müzakirəsi keçiriləcək.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi panel müzakirəsini Səudiyyə Ərəbistanı Krallığının Energetika Nazirliyi və Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) ilə birgə təşkil edəcək.

Tədbirdə nazirlər, hökumət rəsmiləri, sənaye liderləri və maraqlı tərəflər beynəlxalq aviasiyanın dekarbonizasiyası sahəsində son nailiyyətlər barədə diskussiya aparacaqlar.

Beynəlxalq aviasiya sektoru qlobal CO2 emissiyalarında təxminən 2% paya malikdir. Bu rəqəm digər sahələrlə müqayisədə az olsa da, yaxın gələcəkdə əhəmiyyətli dərəcədə artacağı proqnozlaşdırılır.

Tədbirdə 2050-ci ilədək mülki aviasiyanın "Xalis Sıfır" emissiya məqsədinə çatmaq üçün ICAO-ya üzv dövlətlər və aviasiya sənayesinin digər maraqlı tərəflər və maliyyə birliyi ilə əməkdaşlıq imkanları müzakirə olunacaq.

Eyni zamanda bununla bağlı sənaye, hökumətlər və beynəlxalq təşkilatlar üçün prioritetlər, ehtiyac duyulan beynəlxalq siyasət və çərçivələr barədə fikir mübadiləsi aparılacaq.

Gözlənilən odur ki, Bakıda keçirilən COP29 tədbiri iqlim böhranının aradan qaldırılması ilə bağlı dəyərli irsi davam etdirəcək. Eyni zamanda bu prosesə yeni, əhəmiyyətli töhfələr verəcək.

# Vətənla qoşa çəkilən ad



***4 mart 2002-ci ildə Cəlilabadda dünyaya göz açan Əli Mahir oğlu Qənbərov orta məktəbi bitirəndə el-obada böyük hörmət sahibi olub. Bu da onun yaxşı işlərə, xeyirxah əməllərə can atmasından, vətənpərvər olmasından irəli gəlib.***

Həyatı dərk edən gündən Vətəninə ləyaqətli oğul olub insanlara fayda vermək onun əsas amalına dönüb. Əzəldən qəlbi Vətəninə, xalqına sevdalanan Əlini ən çox narahat edən məsələ Qarabağımızın düşmən tapdağında olması idi. Odur ki, 2020-ci ilin aprelin 5-də əsgərliyi yola düşəndə dostlarına, qohumlarına bildirib ki, doğma Azərbaycana vicdanla, ləyaqətlə xidmət edəcəyəm, ən əsası murdar niyyətli erməni dığalarına qarşı amansız olaram.

Əli Füzulidə xidmət etməyə başlayıb. Vətənpərvərliyi, yoldaşa qarşı sədaqəti, cəsurluğu, igidliyi, mərdliyi tez də onu əsgərlərin, zabitlərin sevimlisinə çevirib. Həmçinin əlinə silah alıb döyüş meydanında düşmənlə üz-üzə gəlib onun başını əzmək istəyində olan əsgər hərbi təlimlərdə xüsusi fəallıq göstərib. Və köksündə əsl qəhrəman ürəyi döyünən Əli bu müddətdə çox şey öyrənib.

Sentyabrın 27-də Vətən torpaqların azadlığı uğrunda döyüşlər başlananda Əli düşmən gülləsini vecinə almadan odun-alovun içində kişi kimi vuruşub. İlk ciddi sınaqdan alnıaçıq çıxan cəsur döyüşçü sonra neçə-neçə ölüm-dirim savaşda yağıya qan qusdurub. Atası Mahir kişi bildirir ki, Əli ağır müharibə meydanında yağı üzərində ilk qələbəsindən sonra zəng vurub zəfər qurbanı kəsməsini xahiş etdi.

Əli daim öndə olmaqla bir neçə döyüş əməliyyatlarında göstərdiyi şücaəti ilə seçilib, eləcə öz igidliyi sayəsində çiyin-çiyinə vuruşduğu əsgər yoldaşlarında ruh yüksəkliyi yaradıb. Oktyabrın 6-da Füzuli rayonu ərazisində növbəti döyüş onun cavan ömrünə son qoyub. 18 yaşında ürəklərdə özünə əzəmətli abidə ucaldan Əli Mahir oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzulinin, Xocavəndin azadlığına görə medallarına layiq olub.

Cəlilabadlılar ölməzliyə qovuşan şəhid oğlunu bir an belə unutmurlar. Onun şərəfli həyat yolunu həmişə örnək göstərirlər. Övlad itkisi ağır olsa belə Mahir kişi oğlu ilə qürur duyur. Söz düşəndə deyir ki, Əli şəhid olana qədər mənim övladım idi, hazırda isə bütöv Azərbaycanın oğludur..

***Zəfər Orucoğlu, AJB üzvü***

# Goranboyda əhaliyə göstərilən ödənişli xidmətlər




***2024-cü ilin yanvar-sentyabr aylarında ümumilikdə əhaliyə 40035,5 min manat ödənişli xidmət göstərilmişdir. Əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,6 faiz çox olmuşdur.***

Hüquqi şəxslər tərəfindən əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi ümumi yekunun 29,0 faizini təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 16,9 faiz artaraq 11629,7 min manat olmuşdur. Hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların əhaliyə göstərdiyi ödənişli xidmətlərin həcmi isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,5 faiz artaraq 28405,8 min manat olmuşdur.

Əhaliyə göstərilən ödənişli xidmətin 25,2 faizi və ya 10097,3 min manatı dövlət, 74,8 faizi və ya 29938,2 min manatı isə qeyri-dövlət mülkiyyətinin payına düşür.

2024-cü ilin yanvar-sentyabr aylarında 3961,1 min manatlıq məişət xidməti göstərilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 8,9 faiz çox olmuşdur. Məişət xidməti ödənişli xidmətin ümumi həcminin 9,9 faizini təşkil edir. Məişət xidmətinin həcminin 7,4 min manatı və ya 0,2 faizi hüquqi şəxslərin, 3953,7 min manatı və ya 99,8 faizi hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar hesabına formalaşmışdır.

***Cədvəl 1***

**Goranboy rayonunda əhaliyə göstərilən ödənişli xidmətlər üzrə əsas göstəricilər**

| Göstəricinin adı | 2024-cü ilin yanvar-sentyabr ayları | 2023-cü ilin yanvar-sentyabr ayları |
|---|---|---|
| Əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi, min manatla | 40035,5 | 35682,3 |
| Əhaliyə göstərilən ödənişli xidmətlərin əvvəlki ilin müvafiq dövrünə nisbətən, sabit qiymətlərlə, faizlə | 108,6 | 114,1 |
| Əhaliyə göstərilən ödənişli xidmətlərin ümumi həcmindən məişət xidmətlərinin həcmi, min manatla | 3961,1 | 3549,4 |
| Əhaliyə göstərilən məişət xidmətlərinin əvvəlki ilin müvafiq dövrünə nisbətən, sabit qiymətlərlə, faizlə | 108,9 | 109,5 |

***Qrafik 1***

**Əhaliyə göstərilən ödənişli xidmətlər və məişət xidmətləri**




***Goranboy Rayon Statistika İdarəsi***

# Gəncənin su təchizatı və kanalizasiya sistemləri ilə bağlı memorandum imzalandı



***Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) prezidenti Odil Reno-Basso ilə görüşüb.***

"Unikal"ın məlumatına görə, görüşdə tərəflərin iştirakı ilə "Gəncə şəhərində su təchizatı və kanalizasiya sistemlərinin, yağış sularının idarəetmə sisteminin yenidən qurulması və tullantı sularının təmizlənməsi qurğusunun tikintisi üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Anlaşma Memorandumu"nun imzalanması mərasimi olub.

# Kəlbəcərdə yolların tikintisi sürətlə davam etdirilir



***Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Kəlbəcər şəhərinin daxili yollarının tikintisi layihəsi sürətlə və keyfiyyətlə icra olunur.***

"Unikal" xəbər verir ki, Kəlbəcər şəhərinin ilk yaşayış məhəlləsinin təməli 2023-cü il may ayının 27-də Prezident İlham Əliyevin Kəlbəcər rayonuna səfəri zamanı qoyulub.

Şəhərin daxili yollarının 4 tip en kəsiyinə uyğun tikilməsi nəzərdə tutulub. Hər bir tip en kəsiyinin əhəmiyyətinə uyğun olaraq, hərəkət zolaqlarının sayı 2-4 ədəd, eni 3-3,5 metr, yaşıllıq zolağının eni 1,5-3 metr, velosiped zolağının eni 0.7-1,5 metr, piyada zolağının eni 2-4 metr, tramvay zolağının eni isə 4 metr təşkil edir. Yolların torpaq yatağının eni 12-18-24-30 metr olaraq dəyişir.

Qeyd edək ki, ümumi uzunluğu 26,5 km təşkil edəcək şəhər daxili yollarının birinci mərhələdə 18,9 km hissəsinin tikintisi işləri aparılır.

Kəlbəcər şəhərinin ilk yaşayış məhəlləsini əhatə edən 6 km uzunluğunda daxili yollarda yol yatağının tikintisi başa çatıb, hazırda təqribən 3.6 km hissədə torpaq işləri həyata keçirilir.

Bundan başqa küçələr boyu Kəlbəcər şəhərinin kommunikasiya xətlərinin (su, kanalizasiya, yağış suları boruları, qaz, rabitə və elektrik xətləri) tikintisi işlərinin də icrası artıq yekunlaşmaq üzrədir.

Tikinti-bərpa işləri "İnşaat Norma və Qaydaları"na uyğun, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin şəxsi nəzarəti altında həyata keçirilir.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq Kəlbəcər şəhərinin daxili yollarının tikintisi layihəsinin 2026-cı ildə başa çatdırılması nəzərdə tutulur.

# Zaqatala Rayon Mərkəzi Xəstəxanasında ölüm



***37 yaşlı kişi xəstəxanada ölüb.***

"Unikal" xəbər verir ki, Zaqatala rayonunun Muxax kənd sakini 1987-ci il təvəllüdlü Ramazanov Rəfael Məhəmməd oğlu Zaqatala Rayon Mərkəzi Xəstəxanasında ölüb.

Onun, anafilaktik şok nəticəsində dünyasını dəyişdiyi ehtimal olunur.

***Seymur Əli***

# Sabiq prokuror dünyasını dəyişdi

***Sabirabad rayonunun sabiq prokuroru Seyfəddin Həsənov vəfat edib.***

"Unikal" xəbər verir ki, prokurorluğun veteranı S.Həsənov xəstəlik səbəbindən dünyasını dəyişib.

Qeyd edək ki, Seyfəddin Həsənov 2016-cı ildə təqaüdə göndərilib.

40_27 IYUl-QARA.qxd 11/14/2024 10:03 PM Page 15





## "Zelenskinin ofisinə hər ay on milyonlarla dollar daxil olur" - Ukraynalı deputat

***Ukrayna prezidenti Volodimir Zelenskinin ofisinə hər dövlət qurumundan hər ay on milyonlarla dollar daxil olur.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir, bu barədə Ukrayna Ali Radanın deputatı Artem Dmitruk bildirib.

Parlamentari iddia edir ki, təkcə Odessa vilayətindən ayda 10-15 milyon dollar toplanır.

Bundan əvvəl Ali Radanın deputatı Aleksandr Dubinski özünün "YouTube" kanalında bildirib ki, Zelenski və ona yaxın adamlar hərbi əməliyyatlar bitdikdən sonra Qərb ölkələrindən xərclədikləri pulların auditinin aparılacağından qorxurlar.

***Gülayə Mecid***

## "İran və Rusiyanın Cənubi Qafqazda maraqları fərqlidir" - Səfir



***İran və Rusiyanın Cənubi Qafqazda maraqları fərqlidir.***

"Unikal" xəbər verir ki, bu barədə İranın Ermənistandakı səfiri Mehdi Sobhani bildirib.

"Biz müttəfiq deyilik. Bizim müəyyən fərqlərimiz var, ümumi maraqlarımız var. Amma bu, bizim müttəfiq olduğumuz anlamına gəlmir", - deyə Sobhani qeyd edib.

***Ağarza Elçinoğlu***

## "İsrail Türkiyəyə hücum edə bilər" - Gülər



***Türkiyənin milli müdafiə naziri Yaşar Gülər İsrailin Türkiyəyə hücumu ilə bağlı suala gözlənilməz cavab verib.***

"Unikal" xəbər verir ki, o, bu barədə Türkiyənin NTV kanalına danışıb. Belə ki, jurnalist nazirdən İsrailin Türkiyəyə hücum edə biləcəyini soruşub

Gülər isə cavabında "İsrail şübhəsiz ki, Türkiyəyə hücum edə bilər", - deyib.

***Gülayə Mecid***

## Moskva Tramp administrasiyası ilə ünsiyyətə hazır olduğunu açıqladı

***"Rusiya ABŞ-nin yeni administrasiyası ilə ünsiyyətə hazırdır, top onların meydançasındadır".***

"Unikal" xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib.

XİN rəhbəri "Yeni dünya" layihəsinə müsahibəsində Rusiya ilə ABŞ-nin yeni administrasiyası arasında əlaqələrin bərpasının mümkünlüyü barədə suala cavablandırarkən deyib: "Prezident Putin Valdayda dedi ki, o, hər zaman ünsiyyətə hazırdır, biz onun sözünü kəsməmişik, top qarşı tərəfdədir".

***Ağarza Elçinoğlu***

# Paşinyan 9 noyabr kapitulyasiya aktını necə imzaladığını açıqladı

***"9 noyabr 2020-ci il tarixli bəyanatı imzalayan zaman oradakı həmkarlarımın fikri məni maraqlandırmırdı".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə deyib.

"9 noyabr 2020-ci ildə bir çox həmkarlarım ofisimdə idilər: Onda məni heç kimin fikri maraqlandırmırdı, bu məsuliyyəti öz üzərimə götürürəm və mən də bu bəyanatı imzalayacağam deyirdim. Başqa bir sual budur ki, mən bunu niyə etdim", - Paşinyan deyib.

Onun sözlərinə görə, elə vaxtlar olur ki, insan məsuliyyəti öz üzərinə götürməlidir.

***Ağarza Elçinoğlu***



# ABŞ kəşfiyyatının rəhbəri postuna namizəd Kremlə "işləyir"?

***Donald Trampın ABŞ kəşfiyyatının rəhbəri vəzifəsinə namizədliyini irəli sürdüyü Tulsi Qabbard 2022-ci ildə Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurası tərəfindən Kremlə işləməkdə ittiham edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Ukraynanın "Strana.ua" nəşri məlumat dərc edib.



Departament bildirib ki, Qabbard Vladimir Putinlə əlaqəsi varvə "Kreml pulu üçün" işləyir.

Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurası yanında Dezinformasiyaya Qarşı Mübarizə Mərkəzi bəyan edib ki, "ABŞ Ordusunun Ehtiyatda olan keçmiş zabiti Tulsi Qabbard bir neçə ildir ki, Kremlin pulu üçün xarici auditoriya üçün işləyir".

***Gülayə Mecid***

# "Saakaşvili həbsxanadan çıxa bilməyəcək" - Tbilisi meri

***"Gürcüstanın keçmiş lideri Mixail Saakaşvili ona qarşı başqa cinayət işləri açıldığı üçün indiki prezident Salome Zurabişvili tərəfindən əfv edilsə belə, həbsxanadan çıxa bilməyəcək".***

"Unikal" xəbər verir ki, bunu "İmedi" telekanalına müsahibəsində hakim "Gürcü arzusu - Demokratik Gürcüstan" partiyasının baş katibi, Tbilisi meri Kaxa Kaladze deyib.

"Mən bildiyimə görə, Saakaşviliyə qarşı digər mühüm işlərə baxılır və eks-prezidentin əfv olunması o baxımdan mənasını itirir ki, o, belə bir qərar versə belə, o, azadlığa çıxa bilməyəcək", - Kaladze bildirib.

Qeyd edək ki, hazırda Ukrayna vətəndaşı olan Saakaşvili 2013-cü ildə Gürcüstanı tərk edib. 2016-cı ildə Ukraynanın Odessa vilayətinin qubernatoru vəzifəsində çalışıb. Gürcüstanda Saakaşviliyə qarşı dörd cinayət işi açılıb ki, onlardan ikisi üzrə siyasətçi qiyabi olaraq üç və altı il həbs cəzasına məhkum edilib. 2007-ci il noyabrın 7-də müxalifətin mitinqinin dağıdılması, Gürcüstanın "İmedi" teleşirkətinin ofisinin dağıdılması və təxminən 9 milyon lari (3,3 milyon ABŞ dollarından çox) məbləğində dövlət vəsaitinin mənimsənilməsi ilə bağlı işlərə baxılır.

2021-ci ilin oktyabrında Saakaşvili gizli şəkildə Gürcüstana gəlib,



lakin saxlanılıb, bundan sonra ona qarşı sərhədi qanunsuz keçməklə bağlı yeni ittiham irəli sürülüb. 2022-ci ilin mayında səhhəti pisləşdiyi üçün hazırda qaldığı Tbilisinin özəl "Vivamed" klinikasına aparılıb.

***Gülayə Mecid***

# Donald Tramp İlon Maskı nazir təyin edəcək

***ABŞ-nin yeni prezidenti Donald Tramp İlon Maskı nazir təyin edəcəyini bildirib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, iş adamı hökumətin səmərəliliyi naziri təyin ediləcək.

Hökumətin səmərəliliyi nazirliyini İlon Mask və sahibkar Vivek Ramasvaminin rəhbərlik edəcəkləri bildirilib.

İş adamı "Bu, sistemdə və hökumət tullantıları ilə məşğul olanlar



arasında şok dalğalar yaradacayıq",- deyə qeyd edib.

Qısaltmsaı DOGE olan nazirliyə sözügedən təyinatla bağlı açıqlamasında Donald Tramp, Mask və Ramasvami əməkdaşlıq edərək nazirliyə rəhbərlik edəcəklərini bildirib. Donald Tramp bəyan edib ki, Mask və Ramasvami hökumət bürokratiyasının aradan qaldırılmasına, həddindən artıq tənzimləmələrin azaldılmasına, israfçı xərclərin azaldılması və federal qurumların yenidən qurulmasına yol açacaq.

***Zərifə Nağıyeva***

# Tramp yaxın vaxtlarda Moskvaya səfər edə bilər

***ABŞ-nin yeni seçilmiş prezidenti Donald Tramp tərəfləri atəşkəslə razılaşmağa inandırmaq üçün yaxın gələcəkdə Rusiya və Ukraynaya səfər edə bilər, çünki Respublikaçıların planında sülh sazişinin imzalanması nəzərdə tutulmur.***

"Unikal" xəbər verir ki, bunu "RİA Novosti" agentliyinə açıqlamasında türkiyəli analitik Engin Özer deyib.

Onun fikrincə, Moskva ilə Kiyev arasında münaqişəyə son qoymaq planını həyata keçirmək üçün respublikaçının dövlət başçısı vəzifəsinə başlaması lazım deyil, maraqlı tərəfləri razı salmaq lazımdır. Ekspert qeyd edib ki, bununla bağlı Tramp atəşkəsin təfərrüatlarını müzakirə etmək üçün yaxın vaxtlarda Moskva və Kiyevə səfər edə bilər. O, həmçinin qeyd edib ki, "sülh sazişi hələ də imzalanmayacaq və ola bilsin ki, heç bir mərasimlə atəşkəs imzalamağa ehtiyac qalmayacaq".

Özer Trampın münaqişənin dondurulmasında israrlı olacağına inanır. "Söhbət qeyri-müəyyən atəşkəs elan edilməsindən və Ukraynanın



NATO- ya daxil olması prosesinin dayandırılmasından gedir", - ekspert vurğulayıb.

***Gülayə Mecid***

40_27 IYUI-QARA.qxd 11/14/2024 10:03 PM Page 16



# FİFA prezidenti Bakıya səfərindən yazdı



***Bakıda təşkil olunan COP29-da iştirak edən FİFA prezidenti Canni İnfantino bu haqda fikirlərini bildirib.***

"Unikal" xəbər verir ki, öz "Instagram" səhifəsində bu haqda yazan FİFA rəhbəri tədbirdə iştirak etməyin şərəfli olduğunu qeyd edib:

"Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən dünya liderlərinin iqlim dəyişikliyi ilə bağlı həyati vacib qlobal problemi həll etmək üçün bir araya toplaşdıqları COP29-a, gözəl Bakıya dəvət almaq şərəfli idi.

Mən planetimizin, eləcə də futbolun gələcəyini stadionda keçirilən bu konfransda iştirak edən Prezident Əliyev və bir çox dövlət başçıları ilə müzakirə etdim.

Beynəlxalq təşkilat olaraq FİFA ətraf mühitin və iqlimin mühafizəsi üzrə öz məsuliyyətini ciddi qəbul edir. Biz yüksək keyfiyyətli müxtəlif beynəlxalq sertifikatlaşdırılmış layihələrə investisiyalar vasitəsilə iqlimlə bağlı fəaliyyətə dəstək olmaq və töhfə vermək üçün proqramlar hazırlamış və həyata keçirmişik.

Mən daha da məmnun oldum ki, konfransa iştirak edən hər kəsin ümumi məqsədi var idi: uşaqlarımız və onların birgə gələcəyi. FİFA iqlim dəyişikliyi ilə bağlı mühüm qlobal məsələdə öz rolunu oynamağa davam edəcək. Prezident İlham Əliyevə, AFFA-ya və Azərbaycandakı hər kəsə təşəkkür edirəm".

# Komanda yoldaşı ilə zarafata görə ağır cəza gözlənilir

***"Tottenhem"in futbolçusu Rodriqo Bentakuru bir neçə oyunluq cəza gözləyir.***

QOL.az xəbər verir ki, buna səbəb uruqvaylı yarımmüdafiəçinin cənubi koreyalı komanda yoldaşı Son Hın Min haqqında irqçi ifadələr işlətməsidir.

Bentankur bu ilin iyun ayında Uruqvayda televiziya kanallarının birində qonaq olarkən aparıcı ondan "Tottenhem" formasını istəyib. Futbolçu isə deyib: "Mən sizə Sonun əmisioğlunun köynəyini də verə bilərəm. Onsuz da onlar hamısı bir-birinə oxşayır".

Onun bu çıxışının videosu dərhal yayılıb və müzakirələrə səbəb olub. Bentankur isə buna görə İnstaqram səhifəsində paylaşım edərək komanda yoldaşından üzr istəyib: "Qardaş,




baş verənlərə görə səndən üzr istəyirəm. Bu, sadəcə, çox pis zarafat idi. Bilirsən ki, mən səni komanda yoldaşı kimi çox sevirəm və heç vaxt sənə hörmətsizlik etmərəm. Səni və ya başqalarını incitmərəm!"

Son Hın Min də məsələ ilə bağlı açıqlama verib. O, komanda yoldaşı ilə aralarında heç bir problemin qalmadığını deyib: "Bentankurla danışdım. Bu, onun səhvi idi. O, dərhal üzrxahlığını etdi. Bu, aqressiv və ya pis niyyətli fikirlər deyildi və mənim və ya onun üçün heç bir problem yoxdur. Biz birlikdə irəliləyəcəyik".

Lakin tərəflər arasında problem olmasa da, məsələ ilə bağlı araşdırmaya başlayan İngiltərə Futbol Assosiasiyasının Bentankuru bir neçə oyunluq cəzalandıracağı bildirilir. "The Atleltik"in məlumatına görə, federasiya baş verənlərlə bağlı yaydığı bəyanatda bildirilib ki, Bentankur uyğun olmayan davranış, irqçi ifadələr və təhqiredici ifadələrə yol verib ki, qaydalara əsasən bu cür davranışın cəzası 6-12 oyundur.

# Futbol Assosiasiyasının rəhbəri korrupsiyaya görə həbs edildi

***Cənubi Afrika Futbol Assosiasiyasının rəhbəri Denni Cordan korrupsiyaya görə həbs edilib.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb.

Məlumata görə, 73 yaşlı Cordan maliyyə cinayətləri və 1,3 milyon rand (72 min dollar) məbləğində dələduzluqda ittiham olunub.

Xüsusi epizodlara onun öz təhlükəsizliyini təmin etmək üçün təhlükəsizlik şirkəti, həmçinin federasiyanın direktorlar şurasından yan keçərək ictimaiyyətlə əlaqələr şirkəti ilə müqa-



vilə bağlaması daxildir.

Noyabrın 13-də assosiasiyanın maliyyə direktoru və adıçəkilən ictimaiyyətlə əlaqələr şirkətinin rəhbəri də saxlanılıb. Qısa məhkəmə iclasından sonra onların hər üçü zaminə buraxılıb.



# ABŞ basketbol millisinin sabiq baş məşqçisi insult keçirib

***ABŞ-ın Milli Basketbol Assosiasiyasında (NBA) çıxış edən "San-Antonio Spörs" klubunun baş məşqçisi Qreqq Popoviçin səhhətində problem yaranıb.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, 75 yaşlı mütəxəssis insult keçirib. Onun hazırkı durumunun yaxşı olduğu bildirilib.

Qeyd edək ki, Qreqq Popoviç 2002-2004-cü və 2017-2021-ci illərdə ABŞ millisinin baş məşqçisi olub.

# "Barselona" Qyökereşi alacaq, ya yox? - Deku açıqladı




***"Barselona"nın idman direktoru Deku "Sportinq"in hücumçusu Viktor Qyökereşi transfer etmək istədikləri barədə xəbərlərə münasibət bildirib.***

QOL.az "Mundo Deportivo"ya istinadən xəbər verir ki, o, bu məlumatları təkzib edib və Kataloniya klubunun Viktorla maraqlanmadığını deyib:

"Viktor yaxşı oyunçudur, Portuqaliyada çoxlu qollar vurur. Biz onu tanıyırıq. Amma bu, bizim prioritetimiz deyil. Biz Robert Levandovskini əvəzləmək üçün dərhal hücumçu almaq barədə düşünmürük".

Qeyd edək ki, 26 yaşlı isveçli bu mövsüm bütün turnirlərdə 36 oyunda 46 qol vurub və 8 qolun ötürməsini verib.

# La Liqa prezidenti: "Futbol riyaziyyat deyil"



***La Liqanın rəhbəri Xavyer Tebas İspaniya çempionatındakı hazırkı vəziyyətdən danışıb.***

QOL.az "Marca"ya istinadən xəbər verir ki, o, "Barselona"nın əla formada olduğunu, "Real"ın isə gözlənilən kimi çıxış etmədiyini deyib:

"Barselona 2 il əvvəl La Liqanı qazanmışdı. Futbol riyaziyyat deyil. Mbappe gələndə hamı deyirdi ki, "Real" üstün olacaq, amma futbol belə deyil. Uyğunlaşmaq lazımdır. Çünki futbolu oynayan insanlardır. "Barselona" indi əla formadadır və bu, daha çox qiymətləndirilir. Çünki heç kim "Barselona"dan belə nəticələr gözləmirdi".

Qeyd edək ki, hazırda La Liqanın turnir cədvəlinə 33 xalla "Barselona" liderlik edir. "Real" 27 xalla 2-ci pillədə qərarlaşıb.

# Ronaldinyo AFFA prezidenti ilə görüşdü



***BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Sazişinin Tərəflər Konfransının 29-cu Sessiyası (COP29) çərçivəsində Bakıda səfərdə olan Ronaldinyo burada görüşlərini davam etdirir.***

Əfsanəvi futbolçu SOCAR-ın və AFFA-nın prezidenti Rövşən Nəcəflə də görüşüb. Görüş SOCAR-ın ofisində keçirilib.

Bununla bağlı şəkli Ronaldinyo özünün İnstaqram hesabında paylaşıb.